RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 273 (8866) CÜMƏ AXŞAMI, 16 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Brüssel qələbəsi



## Prezident İlham Əliyev dövlətimizin maraqlarını təmin etdi

**İkinci Qarabağ müharibəsinin qalib və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlərin vəziyyəti bu dəfə dekabrın 14-15-də Belçikada nəzərdən keçirildi.**

Həm Soçi, həm də Brüssel görüşündə məğlub və çarəsiz görünən Nikol Paşinyandan fərqli olaraq, İlham Əliyev qalib və postmüharibə dövründə mövqeyini daha da möhkəmləndirmiş lider kimi görünürdü.

Noyabrın 26-da Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Soçidə keçirilən üçtərəfli görüşdə olduğu kimi, Brüsseldə də şərtləri İlham Əliyev diktə etdi. Azərbaycan Prezidenti dünya birliyinin diqqətinə çatdırdı ki, məğlub ölkə götürdüyü öhdəliyi yerinə yetirməkdən açıq-aşkar boyun qaçırır. Bu da tərəflər arasında sülh sazişinin imzalanmasını gecikdirir.

### Fəal diplomatiya, xoşniyyətli tərəfdaşlıq

Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan, mövqeyi nəzərə alınan dövlətdir. Azərbaycan region ölkələri, dünyanın aparıcı dövlətləri və üzvü olduğu beynəlxalq təşkilatlarla qarşılıqlı etimada əsaslanan münasibətlərini inkişaf etdirməklə yanaşı, xarici siyasətin yeni vektorlarına uyğun olaraq fəal diplomatiya nümayiş etdirir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət sayəsində Azərbaycan həm öz ətrafında əlverişli xarici mühit formalaşdırıb, həm də öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilib.

*Ardı 5-ci səh.*

## Azərbaycanla sülh razılaşması olmazsa, ermənilər gələcəkdə yenə də əziyyət çəkəcəklər

### Prezident İlham Əliyevin İspaniyanın "El Pais" qəzetinə müsahibəsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

*Bax: səh. 2*

## Azərbaycan və Moldova bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyir



**Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti xanım Maya Sandu ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, **Prezident Maya Sandu** dövlətimizin başçısını salamladı: Salam, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Salam, Sizinlə tanışlığıma şadam.

**Prezident Maya SANDU:** Sizinlə də şəxsən tanışlığıma şadam.

**Prezident İlham ƏLİYEV:** Sizi görmək çox xoşdur.

*Ardı 3-cü səh.*

## Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir



**Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident, Sizi yenidən görməyimə çox şadam.

Sizin Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram. İkitərəfli münasibətlərimizin inkişafı üçün o səfərin çox böyük əhəmiyyəti var idi. Şadam ki, səfərdən sonra bütün verdiyimiz təlimatlar yerinə yetirilir və Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir.

*Ardı 3-cü səh.*




## Yeni qanun, yeni gözləntilər

*Media (kütləvi informasiya vasitələri) haqqında yeni qanun qəbul olunacaq!*
*Görəsən yeni qanuna ehtiyac var idimi?*
*Mütəxəssislər deyirlər ki, "hə"!*
*Mən də o fikirdəyəm!*

**Əvvəla, yeni qanunun qəbulu onu göstərir ki:**

- Azərbaycan iqtidarı ölkədə söz və mətbuat azadlığının mövcudluğunda israrlıdır və maraqlıdır;
- Daim bu sahədə vəziyyətin qənaətbəxş olmasını istəyir;
- Təkcə istəmir, həm də mətbuat və söz azadlığının əməldə mümkünlüyünün təmini üçün zəruri qanunvericilik bazası yaradaraq daim onu təkmilləşdirir;
- Deməli, yeni qanun da bu istəyin və iradənin yeni təzahürüdür!

**İkincisi, media haqqında yeni qanun layihəsinin hazırlanması və qəbulu:**

- Ölkə ictimaiyyətinin diqqətini bir daha bu vacib məsələyə cəlb edir;
- Diqqəti bir daha bu sahədəki uğurlara və problemlərə yönəldir;

*Ardı 5-ci səh.*




## NATO-dan İlham Əliyevə tam dəstək

### Baş katib Yens Stoltenberq Azərbaycanın alyansla etibarlı tərəfdaş olduğunu bəyan etdi

Müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli qlobal layihələrin reallaşdırılmasına, Avropanın enerji təhlükəsizliyinə töhfəsini verən Azərbaycan bu gün regional güc kimi qəbul edilməkdədir.

Müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən NATO, BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İƏT, MDB və çoxlu sayda digər təşkilatlarla fəal əməkdaşlığı durmadan inkişaf etdirən Azərbaycan həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan öz milli maraqlarını gerçəkləşdirir.

Prezident İlham Əliyevin dekabrın 14-də Belçika Krallığında işgüzar səfəri çərçivəsində ölkəmizin əməkdaşlıq etdiyi təşkilatlarla münasibətlərinin yüksək səviyyədə olduğu bir daha təsdiqləndi.

*Ardı 5-ci səh.*

## Avropa İttifaqı Şurasının prezidenti üçtərəfli görüşün nəticəsinə dair bəyanat yayıb

### Avropa İttifaqının təşəbbüsü ilə keçirilmiş görüşdə Azərbaycanın haqlı mövqeyi bir daha təsdiqlənib

Dekabrın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Aİ Şurasının prezidenti tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasına, Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib.

Şarl Mişel bildirib ki, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər yerinə yetirilməlidir. Bəyanatda ilk dəfə olaraq Aİ-nin gündəliyinə itkin düşmüş şəxslər mövzusu daxil edilib, onların taleyinə aydınlıq gətirilməsinin zəruriliyi qeyd olunub.

Avropa İttifaqı prezidentinin bəyanatında, həmçinin minatəmizləmə səylərinə, münaqişədən əziyyət çəkmiş insanlara, xüsusilə yenidənqurma fəaliyyətlərinə dəstək ifadə edilib. Habelə sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Aİ tərəfindən məşvərətçi statusda dəstək verilə biləcəyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafını dəstəkləyir. Eyni zamanda, birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması təklifi irəli sürülür.

Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİ-nin dəstəyini ifadə edib. Qurumun hətta iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğulanıb.

Bəyanatda dəmir yolu xəttinin çəkilməsi məsələsinə xüsusi toxunulub. Həmçinin dəmir yollarında gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunacağı diqqətə çatdırılıb.

Qeyd edək ki, bütün bunlar Avropa İttifaqının təşəbbüsü ilə keçirilmiş görüşdə Azərbaycanın haqlı mövqeyinin bir daha təsdiqləndiyini nümayiş etdirir.

## Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib



*Bax: səh. 4*

# Azərbaycanla sülh razılaşması olmazsa, ermənilər gələcəkdə yenə də əziyyət çəkəcəklər

## Prezident İlham Əliyevin İspaniyanın "El Pais" qəzetinə müsahibəsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



**Müxbir: Əvvəla, bizi qəbul etdiyiniz, Brüsseli ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Belə bir xüsusi məqamda bizi qəbul etdiyinizə və bizə bu müsahibənin aparılmasına imkan yaratdığınıza görə təşəkkür edirik. Geosiyasi vəziyyət nöqteyi-nəzərindən böyük miqyasda, Avropa İttifaqı və onun qonşuları nöqteyi-nəzərindən kiçik miqyasda çox maraqlı məqamdır. Buna görə Sizə təşəkkür edirik.**

**Əvvəlcə, mən Ermənistanla hazırkı vəziyyət haqqında Sizdən soruşmaq istəyirəm. Hazırda vəziyyət nə yerdədir? Biz bir aydan da az müddətdən əvvəl sərhəddə ölümcül toqquşmaların olduğunu bilirik. Əlbəttə ki, hər iki tərəf məsuliyyəti bir-birinin üzərinə atır. Bu son hadisələrdə nəyin baş verdiyini və hazırkı vəziyyətin nədən ibarət olduğunu bilmək istəyirəm.**

**Prezident İlham ƏLİYEV:** Müharibə bitəndən bəri 1 ildən çox müddət keçib və ümumiyyətlə, vəziyyət nisbətən sabitdir. Rusiya sülhməramlı qüvvələrinin Qarabağda məsuliyyət daşıdığı ərazidən danışırıqsa, vəziyyət Ermənistan-Azərbaycan sərhədində olan vəziyyətlə müqayisədə daha çox sabitdir. Bunun səbəbi isə əfsuslar olsun ki, Ermənistanın qisas almaq cəhdlərindən vaz keçməməsidir. İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Bu məğlubiyyət, demək olar ki, onların otuz ildir davam edən "yenilməz ordusu", "gücü", "əsgər və komandirlərinin cəsarəti" haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Buna görə də Rusiya sülhməramlılarının xidmət etdiyi ərazidə buna imkanın olmadığını dərk edərək onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər.

Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında dövlət sərhədi təyin olunmayıb. Buna səbəb 1990-cı illərin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsinin işğalının baş verməsi idi. Buna görə həm fiziki, həm də siyasi olaraq sərhədləri demarkasiya və delimitasiya etmək mümkün deyildi. Beləliklə, keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə həmin ərazidə iqlim şəraiti digər ərazilərdən fərqli idi. Uca dağlar və qarla dolu bir ərazi idi. Bu ilin may ayında qar əriməyə başladı. Bu, baş verən kimi Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı və bu sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, dövlət sərhədində mövqe tutdu. Yəni, hadisə belə olub. Əfsuslar olsun ki, Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan Ermənistanın ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, biz öz ərazimiz hesab etdiyimiz ərazidə dururuq. Qarabağ müharibəsinin bitməsindən sonra lap ilk günlərdən Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağı və delimitasiya üzrə birgə işçi qrupunu yaratmağı və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağı təklif etdik. Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar bilərəkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda biz dayanmazdıq. Noyabrın 16-da baş vermiş toqquşma bir gündən az davam etdi. Səhər başladı və axşam saat 6-7 radələrində bitdi. Beləliklə, biz bunu planlaşdırsaydıq dayanmazdıq, çünki Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq.

Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular da bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik.

**- Cənab Prezident, Sizcə Ermənistanla, sadəcə, atəşkəs deyil, real sülh sazişi haqqında nə zaman danışmaq olar?**

- Yəqin ki, bu sualı Ermənistana ünvanlamaq lazımdır. Mən dəfələrlə açıq bəyanat vermişəm ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Bu vaxta kimi Ermənistan rəhbərliyindən heç bir cavab verilməmişdir. Mən bu cür bəyanatları altı aydan çoxdur ki, dəfələrlə etmişəm. Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. İkinci Qarabağ müharibəsindən əvvəl onlar deyirdilər və onların baş naziri açıq şəkildə bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik. Sizin dediyiniz kimi, bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Lakin ümid edirəm ki, yəqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.

**- Siz indi sərhədləri təkrar açmaq istəyirsiniz? Əlbəttə ki, bu sual əvvəlki sualla bağlıdır. Ermənistanla münasibətləri normallaşdırmaq üçün Siz sərhədləri açmağa hazırsınızmı və bunun baş verməsi üçün şərtlər nədir?**

- Bəli, biz sərhədləri açmaq istəyirik. Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb.

**- Ermənistanın baş naziri ilə görüşün keçirilməsi Brüsseldə elan olunduqda Avropa İttifaqının bəyanatında deyilirdi ki, niyyət firavan və sabit Cənubi Qafqaz naminə gərginliklərin aradan qaldırılması yollarını tapmaqdır. Əlbəttə ki, mən Ermənistan ərazisindən keçən bu dəmir yolunu və avtomobil yolunu düşündüm. Lakin Brüsseldəki görüşdən nələri gözləyə bilərik?**

- Bunu söyləmək çətindir, çünki biz bu gün keçiriləcək görüşün nə ilə nəticələndiyini görməliyik. Lakin biz Avropa Komissiyasının və şəxsən Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin fəaliyyətini çox yüksək qiymətləndiririk. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün zəminin yaradılmasına çoxlu töhfə verir. Prezident Mişelin bu yay regiona səfəri çox məhsuldar olub. Yeri gəlmişkən, hər iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqənin yaradılması ilə bağlı olan onun təşəbbüsü də işləyir. Beləliklə, indi bu kommunikasiya kanalı artıq səmərəlidir. Bu, Avropa Komissiyasının Cənubi Qafqazda sabit mühitin yaradılmasına şərait yaratmağa və gələcəkdə üç Cənub Qafqaz ölkəsi arasında qarşılıqlı əlaqənin üçtərəfli formatının yaradılmasına imkan yaratmağa istəkli və hazırlıqlı olduğunu açıq-aydın göstərir. Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Biz onu özümüz, güc yolu və siyasi vasitələrlə həll etdik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunandan 27 il sonra bunu birtərəfli qaydada həyata keçirdik və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır. Çünki postmüharibə vəziyyətinin gedişatından gördüyümüz kimi, əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir. Çünki mən bir neçə dəfə demişəm ki, bizim Ermənistana qarşı ərazi iddialarımızın olması üçün çox tarixi səbəblərimiz var. Onlar sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidirlər. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik. Biz açıq şəkildə demişik ki, buna hazırıq. Lakin hələ ki Ermənistan tərəfdən heç bir müsbət işarə almamışıq. Mənə elə gəlir ki, Ermənistanda daxili vəziyyət və bayaq qeyd etdiyim kimi, müharibədə məğlubiyyətlərindən sonra məyusluq və yumşaq desəm, narazılıq, şişirdilmiş gözləntilər, hərbi və siyasi potensiallarının qeyri-real qiymətləndirilməsi səbəbilə onların cəmiyyətində bir növ psixoloji travma yarandı. Ona görə də Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. İctimai rəy formalaşdırılmalıdır. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var. Bizə gəlincə isə, bizim mövqeyimiz açıq-aşkardır. Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik.

**- Sizcə, burada, Brüsseldə Avropa İttifaqının rəhbərliyi ilə təmas Soçidəki son görüşdən nə ilə fərqlənir? Demək istəyirəm ki, görünür, cənab Putinin rəhbərliyi ilə artıq çox işlər görülüb. Siz Brüsseldəki təmasların fərqi barədə nə deyərdiniz?**

- Səmimi desək, mən heç bir fərq görmürəm. Çünki mən iki ölkə arasındakı münasibətlərin normallaşmasına kömək etmək üçün Rusiya və Avropa İttifaqının həqiqi istəyini görürəm. Əks halda, onlar bu danışıqlarda bizə vaxt sərf etməzdilər və bizim vaxtımızı almazdılar. Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardandır. Onların görəcəyi çox iş var, çox geniş gündəlikləri var. Əgər onlar bu məsələni müzakirə etmək məqsədilə Azərbaycan və Ermənistan liderləri ilə görüşmək üçün bir dəfə deyil, mütəmadi olaraq vaxt sərf edib səy göstərirlərsə, bu, o deməkdir ki, onların əsl istəyi kömək etməkdir və biz bunu qiymətləndiririk. Biz burada hər hansı rəqabət görmürük, baxmayaraq, bəziləri düşünə bilər ki, bu, bir növ rəqabətdir, qətiyyən belə deyil. Bizə gəlincə, görürük ki, bu səylər bir-birini tamamlayır, bu səylər sülh prosesini dəstəkləyə bilər. Mən onu da bilirəm ki, Prezident Putin və prezident Mişel arasında təmaslar olub, onlar Azərbaycanla Ermənistan arasındakı münasibətlər də daxil olmaqla, bir çox məsələləri müzakirə ediblər. Düşünürəm ki, uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri çox müsbət nəticə verə bilər. Çünki uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirməlidirlər. Əgər Ermənistan sülh sazişinin hazırlanmasında bizimlə əməkdaşlıq etməyə razılaşsa, sözsüz ki, fəsilləri, əsas prinsipləri formalaşdırmaq və həll tapmaq üçün bizim beynəlxalq təcrübəyə, beynəlxalq tərəfdaşlara ehtiyacımız olacaq. Beləliklə, mənim gözləntilərim bununla əlaqədardır. Sözsüz ki, hər şey bugünkü üçtərəfli görüşün necə keçməyindən asılı olacaq. Lakin bizim mövqeyimiz aydındır. Biz buraya müsbət dinamikanı gücləndirməyə gəlmişik.

**- Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu bəyannaməsi Sizin hökumətinizdən, - mən olduğu kimi oxuyuram, - erməni milli və ya etnik mənşəyini hədəfə alan irqi nifrət və diskriminasiyanın təhriki və təbliğinin qarşısını almaq, 2020-ci il münaqişəsi ilə əlaqədar əsir götürülmüş və saxlanılan bütün şəxsləri zorakılıq və bədən xəsarətlərindən qorumaq və onların təhlükəsizliyini və qanun qarşısında bərabərliyini təmin etmək üçün lazımi tədbirlər görməyi xahiş edib. Mən Sizdən soruşmaq istərdim, vəziyyətlə bağlı bu istiqamətdə hansı addımlar atılıb?**

- İlk növbədə, mən demək istərdim ki, beynəlxalq məhkəmə, həmçinin bizim Ermənistana qarşı işimizlə bağlı ilkin rəyini açıqlayıb. Mən deyərdim ki, indiyədək bu qurumun qəbul etdiyi qərar balanslaşdırılmışdır. Əgər siz Ermənistana verilən tövsiyəni oxusanız, yəqin ki, daha dəqiq və daha israrlı ifadələr görəcəksiniz. Bizə gəlincə, Azərbaycanda dövlət siyasətimiz münasibətlərin normallaşdırılması məqsədi daşıyır. Ona görə də, bu, bizim mövqeyimizdir və mən bunu açıq şəkildə bəyan edirəm.

İctimai rəyə gəlincə, başa düşmək lazımdır ki, demək olar, 30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerləyeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər. Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerləyeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar. Ona görə də, təbiidir ki, Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hissləri var. Bu, təbiidir. Mən "xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq" desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik. Bizim siyasətimiz budur. Saxlanılan şəxslərə gəlincə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycan Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdi. Beynəlxalq müşahidəçilər bunu sübut edə bilərlər. Hazırda saxlanılan şəxslər hərbi əsir hesab edilə bilməzlər, çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan, demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. Onlar bu terror aktlarını törədiblər, nəticədə bir neçə hərbçi və mülki şəxs həlak olub və onlar saxlanılaraq məsuliyyətə cəlb ediliblər. Onların bəziləri humanitar məqsədlərlə azad ediliblər. İndiyədək biz 100-dən çox saxlanılan şəxsi azad etmişik. Cinayət törədənlər isə mühakimə olunublar. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər. Digər məsələ ondan ibarətdir ki, saxlanılan şəxslərin bəziləri, biz onları geri qaytarandan sonra, - onlardan 10-unu 10 gün əvvəl qaytarmışıq, - Ermənistanda həbs olunub. Bu, bizə, bu insanlara, onların qohumlarına çox ciddi bir siqnaldır. Biz onları Ermənistana qaytarmışıq, onlar isə həbs ediblər. Ola bilsin ki, onlar bu şəxslərə işgəncə verəcəklər. Onların çox sərt təcrübəsi var, çünki bizim əsirlərin Ermənistan həbsxanasındakı dəhşətli vaxtlar barədə danışdıqları onu göstərir ki, bu insanlar çox ağır işgəncələrə məruz qalacaqlar. Ona görə də əgər biz daha çox adam qaytarsaq, onlar həbs olunacaqlar. Bu, real faktdır və bunu təsdiq etmək olar.

**- İcazə verin, hərbi əsirlərlə bağlı bir daha soruşum, çünki təkcə Ermənistan tərəfdən deyil, beynəlxalq təşkilatlar tərəfindən də birbaşa iddialar var ki, saxlanılan onlarla insan var, heç kim əsl sayını bilmir. Bu yaxınlarda hərbi əsirlər sizin ərazilərinizdəki mina xəritələrinin təqdim edilməsi müqabilində dəyişdirilib. Mən bilmək istərdim, bu şəxslərin siyahısı varmı və Siz saxlanılan həmin şəxslərin siyahısını paylaşmağa hazırsınızmı? Siz iddia edirsiniz ki, onlar terrorçudurlar, digər tərəf iddia edir ki, onlar hərbi əsirdirlər. Bizim adlar və sayın göstərildiyi siyahını əldə etmək imkanımız varmı?**

- Burada heç bir sirr yoxdur. Siyahı bəllidir, beynəlxalq təşkilatlar və ermənilər də bundan xəbərdardır. Məsələn, noyabr ayının ortalarında hərbi təxribat həyata keçirərkən 30-dan artıq erməni hərbçisi saxlanılıb. Onların biri yaralı idi və bizim həkimlər onun qeydinə qaldılar, o, əməliyyat olundu və sağalan kimi biz onu geri qaytardıq. Bu, həqiqətdir və təsdiqini tapmış məsələdir. Həmin qrupa daxil olan daha 10 nəfər də geri qaytarılıb və onların bir çoxu artıq Ermənistanda həbsdədir. Beləliklə, Ermənistanın noyabrdakı hərbi təxribatı nəticəsində təqribən 30, ötən ilin noyabrından bəri isə 40-a yaxın hərbçisi əsir düşüb və biz bu rəqəmləri gizlətmirik. Ermənistan tərəfinə əsirlərin ad, soyad və təvəllüdləri ilə bağlı siyahı təqdim edilib. Yəni, onların bundan xəbəri var, beynəlxalq təşkilatların məlumatı var, biz bunu gizlətmirik, çünki burada sirr yoxdur. Eyni zamanda, məhkəmələrin qərarları ictimaiyyətə açıqdır və hər kəs əsirlərin sayını bilir. Lakin yenə də deyirəm, bu, ədalət mühakiməsi məsələsidir. O şəxslər ki, cinayət törətməyib, azərbaycanlıları qətlə yetirməyib, onlar geri qaytarılıb. Artıq qeyd etdiyim kimi, belə şəxslərin sayı 100-dən çoxdur. Məndə olan məlumata görə, xırda cinayətlər törədənlər yüngül cəzalar alıb. Ancaq azərbaycanlıların qətlində əli olanlar məhkəmə qarşısında cavab verməlidir və bu, istənilən ölkədə belədir. Bir daha deyirəm, bu şəxslər İkinci Qarabağ müharibəsinin başa çatmasından 20 gün sonra saxlanılıb. Onlar azad olunmuş ərazilərə noyabrın 26-da göndərilib və ötən il dekabr ayının əvvəlində saxlanılıblar. Növbəti qrup isə qeyd etdiyim kimi, bu ilin noyabrında saxlanılıb. Burada mənzərə tamamilə şəffafdır.

**- Həmin şəxslərin hərbi əsir kimi qiymətləndirilməsi və hərbi əməliyyatların dayandırılması razılığına əsasən, Ermənistan tərəfinə qaytarılması ehtimalı varmı?**

- Dediyim kimi, onlardan 10 nəfəri on gün bundan əvvəl qaytarılıb. Proses humanitar əsaslarda davam edir. Biz heç vaxt "yox" deməmişik, ancaq proses Azərbaycan qanunvericiliyi çərçivəsində, ədalət və humanizm üzərində qurulmalıdır. Bu amillərin vəhdəti mövcuddur, proses gedir, onun davam edəcəyini istisna etmirik. Burada nəyin nə vaxt baş verəcəyini deyə bilmərəm, ancaq proses gedəcək.

**- Təbii qaz məsələsinə toxunmaq istəyirəm. Bildiyiniz kimi, son vaxtlarda Avropa İttifaqının qaz ehtiyatları azalmaqdadır, qazın qiyməti isə artır. Bizim üçün ən əsas qaz təchizatçısı idxalımızın 40 faizinin payına düşdüyü Rusiya ilə münasibətlərdə gərginlik var. Münasibətlər özünün ən pis dövrünü yaşayır. Azərbaycanın iqtisadiyyatı neft və qaz ixracına əsaslanır, ixrac bazarları isə Aİ və Qərbdir. Siz hazırkı vəziyyəti necə təhlil edərdiniz, Aİ və ümumilikdə region hazırkı böhranın öhdəsindən necə gələ bilər?**

- Əvvəla, demək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal çalışırıq. Bizim ümumi daxili məhsulumuzun strukturuna nəzər salsanız, neft və qaz amili 50 faizdən aşağıdır. İxraca gəldikdə isə əlbəttə, bu, bizim əsas ixracımızdır və təbii qaza gəldikdə, bu ixrac artmaqdadır. Hazırda qazın qiyməti ilə bağlı, necə deyərlər, böhranın səbəbi mənə məlum deyil və səmimi desəm, bu, məni maraqlandırmır. Biz isə öz növbəmizdə ev tapşırığımızı yerinə yetirirdik, neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb edirdik və XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan "Cənub qaz dəhlizi" üzərində çalışırdıq. Həmin layihə ötən ilin son günündə başa çatdırılmışdır. Layihənin dördüncü seqmenti - Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi və həmin vaxtdan bizim Avropaya ixracımız başladı. Bundan əvvəl bizim ixrac bazarımız əsasən Türkiyə və Gürcüstan idi. Beləliklə, bizim qazımızı yeni alan ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur. Bu il artıq biz Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etmişik.

*Ardı 3-cü səh.*

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Müstəqillik illərində Qazaxıstan tarixi sınaqlardan şərəflə çıxaraq bütün sahələrdə sürətli inkişaf yolu keçmiş, böyük nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Azərbaycan Respublikası qardaş ölkənizin bu uğurlarına səmimi-qəlbdən sevinir.

Xalqlarımızı dərin tarixi kökləri olan dostluq münasibətləri birləşdirir. Bu gün bu xoş ənənələr üzərində qurulan dövlətlərarası əlaqələrimiz müvəffəqiyyətlə inkişaf etməkdədir.

İnanıram ki, sıx tellər ilə biri-birinə bağlı olan xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Qazaxıstan arasındakı dostluq, səmərəli əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2021-ci il*

## Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramının 50-ci ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu il Azərbaycan Respublikası ilə Bəhreyn Krallığı arasında diplomatik əlaqələrin qurulmasının 25 ili tamam olur. İnanıram ki, dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2021-ci il*

# Azərbaycanla sülh razılaşması olmazsa, ermənilər gələcəkdə yenə də əziyyət çəkəcəklər

## Prezident İlham Əliyevin İspaniyanın "El Pais" qəzetinə müsahibəsi

*Əvvəli 2-ci səh.*

Gələn il biz 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixrac etməyi planlaşdırırıq. Bu rəqəm arta da bilər, ancaq bilirsiniz ki, qaz bazarı neft bazarından fərqlidir. Burada müqavilələr əvvəlcədən bağlanmalıdır. Hazırda ixrac etdiyimiz qaz həcmlərinə dair müqavilələr boru kəmərinin istifadəyə verilməsindən öncə bağlanıb. Qaz sahəsində biznes bu şəkildə aparılır. Beləliklə, hasilatı artırmaq və ya Avropa İttifaqının yeni üzvləri ilə əməkdaşlığı planlaşdırmaq üçün praktiki səviyyədə danışıqlar aparılmalı, həmin bazarın potensialı və Avropada qaz infrastrukturu sistemlərinin bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, hazırda Avropada yeni bağlantılar üzərində iş gedir. Yəni, bunu planlaşdırmaq lazımdır, çünki bizim qazımız uzunmüddətli müqavilələr əsasında satılır və biz müqavilələri 100 faiz yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və əlbəttə, bu mövzu daim bizim gündəlikdədir. Mənim qiymətləndirməm ondan ibarətdir ki, bizim nəhəng təbii qaz ehtiyatımız var. Biz Avropaya təbii qazın ənənəvi təchizat marşrutlarından daha qısa marşruta malikik və bizim mənbə Avropa bazarı üçün yenidir. Siz artıq qeyd etdiniz, Avropa İttifaqı və Avropa İttifaqına üzv olmayan bəzi ölkələrdə hasilatın səviyyəsi azalır və hamımız bilirik ki, bəzi dövlətlərin enerji strategiyasına dair qərarlarından irəli gələrək Avropanın təbii qaza ehtiyacı artacaq. Azərbaycan Avropanın etibarlı tərəfdaşı və dostudur. Təsəvvür edin, Azərbaycan Bakıdan İtaliyaya qədər uzanan, bir hissəsi dənizin dibi ilə gedən 3500 kilometrlik boru xəttini inşa edib. Yəni, hər şey hazırdır və qaz idxal olunur. Burada görüləcək iş Avropa Komissiyası və bizdən daha artıq həcmdə qaz almaq istəyən və ya yeni həcmdə qaz idxal etmək arzusunda olan ölkələrlə təmas qurmaq və danışıqlara başlamaqdan ibarətdir.

**- Ötən il həyata keçirdiyiniz yeni qaz dəhlizi - TAP layihəsinə cənab Putin ilə söhbətlərinizdə toxunulubmu? Bu, Rusiya qazına alternativ olduğu üçün cənab Putini narahat edən məsələdirmi?**

- Xeyr. İl ərzində müntəzəm olaraq görüşməyimizə və tez-tez telefon söhbəti aparmağımıza baxmayaraq, səmimi desəm, biz heç vaxt Prezident Putinlə bu məsələni müzakirə etməmişik. O, bu məsələni heç vaxt qaldırmayıb, çünki zənnimcə, bu rəqabət məsələsi böyük mənada şişirdilib. Bizim təchiz etdiyimiz qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Bizim Avropaya ixracımız, dediyim kimi, rəqabət təşkil etmir və biz heç vaxt buna rəqabət kimi baxmamışıq. Bizim üçün bu, bir kommersiya layihəsi idi. Bu gün bütün boru kəmərləri və infrastruktur hazır olduğu üçün Avropa və digər ölkələrə qaz təchizatının əsas mənbəyi olan "Şahdəniz" yatağının daxili gəlirlilik dərəcəsi artıb. Yəni, o, kommersiya baxımından çox cəlbedici olub. Biz nəhəng qaz ehtiyatlarına malikik və bizim bazara ehtiyacımız var idi. Bizim üçün bazar hara ola bilərdi? Bu, Rusiya ola bilməzdi, çünki Rusiya özü ixracatçıdır. Bu, Gürcüstan da ola bilməzdi, çünki onun qaza olan ehtiyacı nisbətən azdır. Bu, Türkiyə ola bilərdi və oradan isə Avropa. Biz məhz belə də etdik. Türkiyəyə ixrac 2006-cı ildə başlandı. Həcm getdikcə artırdı və daha sonra Avropaya ixrac başlandı. Yəni, bizim üçün bu, bir kommersiya layihəsi idi, lakin onu siyasiləşdirdilər. Təəssüf ki, böyük mənada bunun heç bir mənası yox idi. Rusiya Federasiyası və onun rəhbərliyi məsələnin əsl mahiyyətini anlayır. Bizim qazımız heç bir halda alternativ deyil. Bu, yalnız istehlakçıların ehtiyacı olduğu əlavə həcmdir. Məsələn, bu gün bizim qazımız Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini təmin edir. Qazımız artıq Avropaya nəql edildiyindən biz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcəyik.

**- Sonuncu sualım dronlar haqqındadır. Ermənistanla müharibədə Sizdə dronların olması çox mühüm əhəmiyyət təşkil edirdi. Bu haqda düşüncələrinizi bilmək istərdim. Səhv etmirəmsə, Sizdə İsrail və Türkiyə texnologiyası əsasında hazırlanmış dronlar var. Bilmək istəyirəm ki, bu dronlar indi dünya satışına çıxarılacaqmı? Onları müstəqil şəkildə istehsal etmək və dünyaya satmaq imkanınız var. Dünya bunda maraqlıdırmı? Ümumiyyətlə, bu, müasir müharibəni və dronların müasir müharibələrin zəruri bir elementinə necə çevrilməsini əks etdirir.**

- Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi. Qeyd etdiyiniz kimi, hər iki ölkədən - Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi. Eyni sözü bizim hava hücumundan müdafiə sistemi barədə demək olar. Bizdə İsrailin hava hücumundan müdafiə sistemi var, Rusiyanın hava hücumundan müdafiə sistemi var - S300. Bizim "BUK" tipli hava hücumundan müdafiə sistemimiz var. Beləliklə, bu hava hücumundan müdafiə sistemlərini birləşdirmək də həmçinin ciddi hədəf idi və hava hücumundan müdafiə sistemlərinin effektiv istifadəsi ilə biz özümüzü böyük faciədən qoruduq. Çünki Ermənistan bizə qarşı ballistik raketlər ataraq yuxuda olan şəhərləri dağıdırdı. Gəncə şəhəri bir neçə dəfə SCUD raketinin hücumuna məruz qaldı. Onlar yaşayış məntəqələrini dağıtmaq üçün hədəfə alırdılar. Onlar "İsgəndər-M" ballistik raketlərindən istifadə etdilər. Bu, sonuncu gün Şuşanı dağıtmaq üçün istifadə olunmuşdu. Bir dənə deyildi. Bu raketlərin çoxu bizim hava hücumundan müdafiə sistemi tərəfindən zərərsizləşdirilmişdi. Beləliklə, hava hücumundan müdafiə sistemi, dronlar, artilleriya. Dronlar artilleriyaya hədəfi göstərirdi. Artıq sirr deyil ki, müharibənin ilk günlərində biz Ermənistanın hava hücumundan müdafiə sistemini aşkar etmək üçün kiçik, yüngül təyyarələrdən istifadə edirdik. Pilot tullanırdı və kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulmuş kiçik təyyarə mövqelərə gedirdi, Ermənistanın hava hücumundan müdafiə sistemi bu lazımsız hədəfə hücum etməklə özünü aşkar edirdi. Sonra biz Ermənistanın hava hücumundan müdafiə sistemini məhv edirdik. Bu amillərin birləşməsi, üstəlik, ilk növbədə, öz həyatlarını qurban verən əsgər və zabitlərimizin motivasiyası və cəsarəti. Üç minə yaxın azərbaycanlı öz vətənləri uğrunda həlak oldu. Bütün bu amillər çox çətin coğrafi şəraitdə qələbədə həlledici rol oynadı. Çünki biz dağlara çıxmalı olurduq, elə şəraitdə ki, ermənilər, demək olar, 30 il ərzində 6 istehkam xətti qurmuşdular, minalar basdırmışdılar. Yalnız müharibədən sonra bizdə, demək olar ki, 200 nəfər minaya düşərək həlak olub və ya yaralanıb. Sözsüz ki, bütün bunlar bizim qələbəmiz üçün təməl yaratdı. Dronlara gəlincə, biz onları almağa davam edirik. Müharibə başa çatandan sonra biz yeni modifikasiyalar almaq üçün yeni müqavilələr imzaladıq və qeyd etdiyiniz kimi, eyni zamanda, biz qırıcı, kamikadze deyil, kəşfiyyat dronları istehsal edirik və bu dronlar bazara çıxarılır. Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir və biz artıq əsas ehtiyaclarımızı ödəyən hərbi sənaye kompleksini inkişaf etdirmişik. Biz bunu davam etdiririk, çünki qeyd etdiyim kimi, hələ də erməni revanşizmi təhlükəsi var, hələ də sabitliyin pozulması təhlükəsi var. Beləliklə, biz hər zaman sərhədlərimizi müdafiə etməyə hazır olmalıyıq.

**- Müharibənin nəticəsi Sizin hərbi məhsullara marağınızı artırıbmı?**

- Bəli, əlbəttə ki. Buna və eyni zamanda, bizim təcrübəmizə marağı artırıb. Çünki təcrübəmizi öyrənmək istəyən bir neçə ölkə artıq bizə müraciət edərək bunu necə etdiyimizlə maraqlanıb. Lakin müharibəyə ilk gündən son günədək rəhbərlik edən Ali Baş Komandan olaraq sizə bir daha deyə bilərəm ki, bunu necə etdiyimizi izah etmək çətin olar. Çünki siz bunu hiss etməlisiniz. Çünki biz demək olar ki, 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbüründən əziyyət çəkirdik. Onlar bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq bizim torpaqlarda oturmuşdular, torpaqlarımızı dağıdırdılar, iddia edirdilər ki, bu torpaq onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti - onların hamısı bizi dəstəkləyən qətnamələr qəbul etmişdi, lakin onlar, sadəcə, orada oturmuşdular və bəyan edirdilər ki, həmişəlik orada oturacaqlar. Beləliklə, motivasiya, ruh yüksəkliyi və cəsarət qələbəmizin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi. Baxmayaraq, bir çoxları bizə bunu necə etdiyimizlə bağlı müraciət etsə də, düşünürəm ki, bunu izah etmək üçün uzun illər lazımdır.

**- Vaxt ayırıb müsahibə verdiyinizə görə təşəkkür edirəm.**

- Təşəkkür edirəm.

**- Bugünkü görüşlərinizdə və növbəti günlərdə Sizə uğurlar arzulayıram.**

# Azərbaycan və Moldova bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyir



*Əvvəli 1-ci səh.*

**Prezident Maya SANDU:** Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Bu, bizim birinci görüşümüzdür. Mən Sizi seçkilərdə qələbə münasibətilə bir daha təbrik etmək və Sizə uğurlar arzulamaq istəyirəm.

**Prezident Maya SANDU:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Ümid edirəm ki, ölkələrimiz arasında münasibətlər müsbət məcrada inkişaf etməyə davam edəcək. Bu baxımdan şəxsi təmaslar çox vacib rol oynayır.

**Prezident Maya SANDU:** Elədir ki, var. Çox sağ olun, cənab Prezident. Sizə qaz böhranı keçirdiyimiz müddətdə bizə dəstək olduğunuza görə minnətdarlığımı bildirmək istəyirəm. Biz potensial həlləri araşdıra bilərdik. Sonda biz qısamüddətli həll yolunu tapdıq. Lakin biz enerji sektorunda əməkdaşlığımızı müzakirə etmək istəyirik.

Əlbəttə ki, biz biznes baxımından əməkdaşlığımızın dərinləşdirilməsi, ticarət mübadiləsi sahəsində əməkdaşlıq üçün imkanları araşdırmaqda həmişə maraqlıyıq. Biz Moldovada biznes mühitinin yaxşılaşdırılmasında çox maraqlıyıq. Biz insanlarımız üçün daha çox iş yerləri yaratmaq istəyirik. Biz xarici investorların cəlb edilməsində və istənilən digər ölkələr kimi yeni bazarların tədqiqində maraqlıyıq. Beləliklə, mən təmasların yaradılması və biznes forumlarını təşkil etməklə biznesmenlərimizə bir-biri ilə ünsiyyət yaratmağa kömək imkanını görürəm ki, hər iki ölkənin vətəndaşlarına kömək edə bilək.

**Prezident İlham ƏLİYEV:** Bəli, mən Sizinlə razıyam. Hesab edirəm ki, biz hökumətlərarası birgə komissiyanın fəaliyyətini də gücləndirməliyik. Komissiyanın yeni toplantısı keçirilməlidir. Çünki komissiyanın üzvləri, demək olar, on ildir ki, bir araya gəlmirlər. Bəzi məlumatlara baxdım və gördüm ki, qarşılıqlı ticarətin səviyyəsi çox kiçikdir. Hesab edirəm bunun artırılması üçün potensial var. Lakin bunun üçün Sizin dediyiniz kimi biznes dairələri bir araya gəlməlidir. Komissiyanın toplantısı olsa, onlar həmçinin potensial investisiya imkanları, biznes mühiti haqqında təqdimatlar edə bilərlər ki, biz də qarşılıqlı ticarətin səviyyəsini artıra bilək. Hesab edirəm ki, biz bir-birimizə təklif edə biləcəyimiz çoxlu malları müəyyən edə bilərik. Enerji əməkdaşlığı məsələsində bilirsiniz ki, biz Avropa təsisatları ilə fəal işləyirik, Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq və yeni bazarlara çıxış bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə düşünürəm ki, bu məsələ ilə bağlı ümumi zəmini tapacağıq.

❖ ❖ ❖

Görüşdə həmçinin Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü daim dəstəklədiyi qeyd olundu. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, yaxın vaxtlarda hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi, iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması, enerji, investisiya sahələrində, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

# Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir



*Əvvəli 1-ci səh.*

Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Əlbəttə, çox maraqlıyıq ki, bu əlaqələri daha da genişləndirək.

Əlbəttə ki, şəxsi təmaslar bu məqsədlərə nail olmaq üçün xüsusi şərait yaradır. Əminəm ki, bugünkü görüşümüz də çox məhsuldar və uğurlu olacaq.

Bu gün biz Sizinlə birlikdə Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak edəcəyik. Bu gün işimiz çoxdur.

❖ ❖ ❖

**Prezident Volodimir ZELENSKİ** dedi:

- Doğrudur, işimiz çoxdur. Zati-aliləri cənab Prezident, sammit çərçivəsində ayrıca bir görüşün keçirilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkənizin siyasətində bizə davamlı olaraq dəstək olduğunuza, ərazi bütövlüyümüzü və suverenliyimizi dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

İki il bundan əvvəl Azərbaycandakı görüşümüzlə bağlı çox yaxşı xatirələrim var. Azərbaycan çox qonaqpərvər ölkədir. Fürsətdən istifadə edərək Sizi Ukraynaya səfərə dəvət edirəm. Ümid edirdim ki, Siz bizim müstəqilliyimizin 30-cu ildönümündə ölkəmizə səfər edəcəkdiniz, lakin COVID-ə görə bu günlərdə dünyada vəziyyətin çətin olduğunu da başa düşürəm. Lakin müstəqilliyin 30-cu ildönümü bütün il ərzində qeyd olunur - avqust ayından növbəti ilin avqust ayınadək. Buna görə ümid edirəm ki, Siz imkan tapıb Ukraynaya gələcəksiniz və biz Sizin səfərinizi səbirsizliklə gözləyəcəyik.

❖ ❖ ❖

Söhbət zamanı, həmçinin hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, biznes dairələrinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, xüsusilə enerji sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.

# Şəmkir rayon sakinlərinin göz xəstəliklərinin pulsuz müayinəsi və əməliyyatı həyata keçirilib

Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri, 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat Sahibə Qafarovanın təşəbbüsü ilə noyabr ayında Şəmkir rayonunda vətəndaşların göz xəstəliklərinin pulsuz müayinəsi təşkil olunub.

"Dünyagöz" xəstəxanasının yüksəkixtisaslı həkimləri tərəfindən karantin qaydalarına uyğun olaraq, həyata keçirilən müayinələrdə əsasən şəhid ailələri, müharibədə sağlamlığını itirmiş şəxslər və onların ailə üzvləri də daxil olmaqla, ümumilikdə 240 nəfərdən çox rayon sakini iştirak edib. Aksiya zamanı qeyd olunub ki, həkim heyəti tərəfindən əməliyyat olunması tövsiyə edilən sakinlərin pulsuz zəruri cərrahiyyə əməliyyatı aparılacaq.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu günlərdə həmin sakinlər "Dünyagöz" xəstəxanasında pulsuz əməliyyat olunublar. Onlar əməliyyatdan sonra zəruri dərman və eynəklərlə də təmin ediliblər.

Milli Məclisin Sədri Sahibə Qafarova əməliyyat olunan sakinlərin vəziyyəti ilə maraqlanıb, həmçinin aksiyaya dəstək verən "Dünyagöz" xəstəxanasının yüksəkixtisaslı həkimlərinə minnətdarlığını çatdırıb. Sakinlər dövlətimiz tərəfindən reallaşdırılan tədbirlərdən sonsuz razılıqlarını ifadə edərək müayinə və əməliyyatların təşkilinə görə təşəkkürlərini ifadə ediblər.





Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli sosial siyasət vətəndaşların rifah halının yüksəlməsi, geniş sosial müdafiə tədbirlərinin həyata keçirilməsi, müasir tələblərə cavab verən sosial infrastrukturun yaradılması, o cümlədən xüsusi qayğıya ehtiyacı olan vətəndaşların dövlət dəstəyi və diqqəti ilə əhatə olunması kimi məqsədləri ehtiva edir. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən geniş dövlət proqramları nəticəsində bu gün ölkə vətəndaşları səhiyyə sahəsində də ən yüksək xidmətlə təmin olunurlar. Bu istiqamətdə görülən işlərə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları əvəzsiz töhfələr verib. Şəmkir rayon sakinlərinin göz xəstəlikləri üzrə pulsuz müayinə və əməliyyatlarının keçirilməsi də ölkəmizdə reallaşdırılan sosial siyasətin məqsədlərinə uyğundur və bu kimi nəcib təşəbbüslərə dəstək xarakteri daşıyır.

# Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib






**Dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammiti keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak edib.

Dövlətimizin başçısı sammitdə çıxış edib.

Prezident İlham Əliyev uğurla inkişaf edən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək Avropa İttifaqı ilə Azərbaycan arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti, yəni, quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğulayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bu ilin iyul ayında Cənubi Qafqaz regionuna, o cümlədən Azərbaycana səfərini və səfər çərçivəsində onunla keçirdiyi görüşləri məmnunluqla xatırladıb, bu əsnada regional məsələlərə dair ətraflı müzakirələrin aparıldığını qeyd edib.

Dövlətimizin başçısı regional məsələləri daim gündəliyində saxladığına, bu proseslərə verdiyi töhfəyə və dəstəyə görə Avropa İttifaqı Şurasının prezidentinə təşəkkürünü bildirib. Bu xüsusda Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini xüsusi qeyd edib. Prezident İlham Əliyev Şarl Mişelin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfəni vurğulayıb. Həmçinin Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Şərq Tərəfdaşlığının VI Sammitində Ermənistan ilə Azərbaycan arasında konstruktiv mühitin hökm sürdüyünü qeyd edib, belə bir mühitin yaradılmasında Avropa İttifaqının rolunu xüsusi vurğulayıb. Dövlətimizin başçısı bu imkanın əldən verilməməsi və yaranmış fürsətdən istifadə edərək regionda davamlı sülhün təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, əvvəlki illərdə Ermənistan rəhbərliyi adətən beynəlxalq tədbirlər zamanı Azərbaycana qarşı əsassız, ittiham xarakterli çıxışlar edirdi. Bu dəfə isə belə bir halın baş vermədiyini müsbət qiymətləndirən Prezident İlham Əliyev öz növbəsində Ermənistana qarşı bilavasitə fikir səsləndirmədiyini qeyd edib. Dövlətimizin başçısı deyib ki, bu, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını göstərir. Prezident İlham Əliyev deyib ki, biz gələcəyə baxmalıyıq.

Dövlətimizin başçısı İlham Əliyev, həmçinin ATƏT-in Minsk qrupunun roluna toxunaraq 28 il ərzində aparılan danışıqlarda hər hansı bir nəticənin hasil olmadığını diqqətə çatdırıb. Azərbaycanın ATƏT-in Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözlədiyini bildirib. Deyib ki, bu xüsusda Azərbaycan tərəfi hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə bilər.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə minalar məsələsinə toxunaraq Azərbaycanın mülki vətəndaşlarının minalardan əziyyət çəkdiyini və bugünə qədər 200-ə yaxın insanın mina partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını bildirib. Bu xüsusda Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı, eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığı qeyd edib, bu münasibətlərin də strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirib. 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi"nin XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olduğunu vurğulayan Prezident İlham Əliyev bu layihənin son komponenti olan Trans-Adriatik xəttinin işə salınması ilə Azərbaycan qazının Avropa məkanına çatdırıldığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan qazı artıq Avropa İttifaqının üç ölkəsinə - İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılır. Gələcəkdə Azərbaycan istehsal etdiyi qazın ixrac coğrafiyasını Avropa İttifaqının digər üzv ölkələrinə genişləndirmək niyyətindədir. Dövlətimizin başçısı Azərbaycan qazının etibarlı və yeni mənbə olaraq Avropa İttifaqı bazarına çatdırıldığını vurğulayaraq bildirib ki, baş verən son hadisələr də enerji təhlükəsizliyi baxımından şaxələndirmənin vacibliyini göstərir.

Sonda Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına verdiyi töhfəyə görə Avropa İttifaqı Şurasının Prezidentinə bir daha minnətdarlığını bildirib.

❖ ❖ ❖

Sonra sammitdə iştirak edən dövlət və hökumət başçılarının işçi naharı olub.

Prezident İlham Əliyev tədbirdə iştirak edib.

## Fransa Prezidentinin təşəbbüsü ilə Brüsseldə Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında qeyri-formal görüş keçirilib



**Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib.**

## Vilayət Eyvazov Azərbaycan Atıcılıq Federasiyasının prezidenti seçilib

Dekabrın 15-də Gənclər və İdman Nazirliyinin inzibati binasında Azərbaycan Atıcılıq Federasiyasının hesabat-seçki konfransı keçirilib.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra nazir Fərid Qayıbov çıxış edərək tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov federasiyanın son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib.

Daha sonra federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov səsvermə nəticəsində Azərbaycan Atıcılıq Federasiyasının yeni prezidenti seçilib.

Konfransda həmçinin İsmət Əliyev və Zemfira Meftaxətdinova federasiyanın vitse-prezidentləri, Ruslan Lunyov, Aynur Cəfərova, Əli Hüseynli və Rəsul Məmmədov isə İdarə Heyətinə üzv seçiliblər.




Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edib.

Federasiyanın yeni prezidenti Vilayət Eyvazov çıxış edərək göstərilən etimada görə təşəkkürünü bildirib. V.Eyvazov idmanın bu növünün inkişafı üçün əlindən gələni edəcəyini, bunun üçün mütəxəssislərin rəy və təkliflərinin xüsusilə diqqətə alınacağını vurğulayıb.

## Azərbaycan Respublikası Baş Prokurorluğunun kollegiya iclası olub



Dekabrın 15-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və digər məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclas iştirakçıları əvvəlcə Baş Prokurorluğun binasının foyesində xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyublar.

Kollegiya iclasında çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda ötən ilin sentyabrından başlayaraq apardığı haqq mübarizəsində qazandığı möhtəşəm Qələbə sayəsində uzun illər ərzində davam edən münaqişəyə son qoyaraq, ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratdığını vurğulayıb.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirildiyi, şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçılarının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə əhatə olunduğu diqqətə çatdırılıb.

Kollegiya iclasında ölkəmizdə pandemiyaya qarşı mübarizə sahəsində dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən tədbirlərin əhəmiyyəti vurğulanmaqla son günlərdə ölkədə sağalanların sayının artması ilə yanaşı, vaksinasiyanın uğurla aparılması nəticəsində əhalimizin çox hissəsinin peyvənd olunduğu bildirilib, COVID-19 infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilib.

Ötən kollegiya iclasından keçən müddətdə bir çox ölkələrin Baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətlərinin, beynəlxalq təşkilat və qurumların rəhbərlərinin ölkəmizə işgüzar səfərlərinin önəmi barədə iclas iştirakçılarına məlumat verilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanı ilə yaradılmış "Elektron prokurorluq" informasiya sisteminin tətbiqindən irəli gələn vəzifələrin icrası ilə əlaqədar Baş Prokurorluq üzrə yaradılmış İşçi qrup tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələrə dair Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, normativ-hüquqi aktların rəsmi şərhinin verilməsinə dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilən sorğuların və qanunvericilik təşəbbüsü qaydasında hazırlanan qanun layihələri ilə bağlı Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə cinayət və cinayət-prosessual hüquq normalarının tətbiqi vəziyyətinin ümumiləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilən sorğularla bağlı Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi Orxan İsayev, "Prokurorluq orqanlarının sosial media siyasəti haqqında" Təlimatın layihəsi ilə bağlı Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi və həmçinin Prokurorluğa qulluğa qəbul barədə 2021-ci il mayın 31-də elan olunmuş müsabiqə üzrə müəyyən edilmiş yerlərin sayının artırılması ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Kollegiya üzvləri çıxış edərək müzakirələr ətrafında təkliflərini bildiriblər.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Yeni qanun, yeni gözləntilər

*Əvvəli 1-ci səh.*

▪ Müzakirələr prosesində yeni, həm də yeni şəraitə uyğun maraqlı təkliflər səsləndirilir və onların yeni qanuna əlavəsinə imkan yaradır;

▪ Ən nəhayət, yeni qanun və onunla bağlı müzakirələr jurnalistlər, media subyektləri üçün də faydalıdır və medianın (həm də jurnalistlərin) maddi vəziyyətinin yaxşılaşdırılması yönündə müəyyən addımların atılacağını istisna etmir!

❖❖❖

**KİV haqqında sonuncu qanun 1999-cu ildə qəbul olunmuşdu.**

**Həmin dövrün tələblərini də tam ödəyirdi.**

**Ötən dövrdə media sahəsində baş verən prosesləri əhatə etmək üçün həmin qanunda 79 dəfə dəyişiklik aparılmışdır.**

**25 maddə isə tam ləğv edilmişdir.**

*Odur ki, həmin qanuna bir daha dəyişikliklər etməkdənsə, yenisinin qəbulu daha doğru addımdır.*

Tarixi təcrübə göstərir ki, informasiya sahəsi dünyada ən sürətli inkişaf edən sahələrdəndir.

Qəzet yeni meydana çıxanda onu oxucusuna çatdırmaq üçün atdan, arabadan istifadə olunurdu.

Tirajı və dövriliyi də çox aşağı səviyyədə idi - ayda 1-2 dəfə çıxırdı və bir neçə yüz sayda!

Elektrik enerjisinin, daxili yanma mühərriklərinin kəşfi bu sahənin də sürətini və imkanlarını artırdı.

Üstəlik, informasiyanın toplanması və yayımı ilə məşğul olan xüsusi insanların və qurumların meydana gəlməsini şərtləndirdi.

**Beləliklə, jurnalistika, jurnalist, qəzetçi anlayışı dilimizə və həyatımıza daxil oldu.**

Radionun yaranması, teleqrafın (Morze əlifbasının və onun aparatının) kəşfi qısa müddətdə informasiyanı geniş əraziyə yaymağa, informasiya toplayıcısının işini asanlaşdırmağa və məhsuldarlığını yüksəltməyə şərait yaratdı.

Faks aparatı isə jurnalistlərin işini xeyli asanlaşdırdı, zamana qənaət olunmasına kömək göstərdi.

Televiziyanın kəşfi cəmiyyətdə əsl inqilab təsiri doğurdu: eyni zamanda səs və təsvir uzaq məsafəyə anındaca ötürülürdü!

**Bu gün isə cibində mobil telefonu olan hər bir şəxs çox asanlıqla informasiya toplayıcısına və yayıcısına çevrilə bilir.**

❖❖❖

İndi informasiyasız ötüşmək mümkün deyil!

Özü də informasiya təkcə adi marağımızı təmin etmir.

Həm də uğurumuza, biznesimizin inkişafına yardım göstərir.

*Artıq "informasiya müharibəsi" anlayışı da həyatımızın ciddi reallıqlarındandır.*

*Və bu reallıqları qəbul etməyənləri acı məğlubiyyət gözləyir.*

**44 günlük Zəfər müharibəsində bunun canlı şahidinə çevrildik.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya müharibəsində təkbaşına döyüşdü, 30-dan çox dünya KİV-inə, televiziya kanallarına və informasiya agentliklərinə müsahibələr verdi.**

**Azərbaycanın haqq işi, Qarabağ uğrunda müharibə barədə həqiqətləri dünyaya yaydı, feyk xəbərləri ifşa etdi, erməni vəhşiliklərinin üstünü konkret faktlar əsasında açdı.**

**Qarabağ uğrunda Vətən müharibəsində informasiya cəbhəsinin də baş qəhrəmanı oldu!**

**Və əgər bu qələbə olmasaydı, bu sahədəki "döyüşlər" nəzərə alınmasaydı, zəfərimiz belə möhtəşəm və etibarlı olmazdı!**

❖❖❖

Azərbaycan iqtidarı mətbuat və söz azadlığına xüsusi diqqət və qayğı göstərir.




**Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra müstəqillik dövründə bu sahənin inkişafı ilə bağlı təsirli addımlar atıldı.** *Ümummilli Liderimiz daim jurnalistlərlə görüşür, onlara ölkənin maraqları, problemləri, mövcud durumu ilə bağlı müsahibə və açıqlamalar verməklə yanaşı, mətbuatın problemlərini də öyrənərək həllinə yardım edirdi.*

**Bu bir tarixi faktdır ki, 6 avqust 1998-ci ildə Heydər Əliyevin fərmanı ilə Azərbaycanda mətbuata senzura nəzarəti ləğv edildi.**

**Ulu Öndərdən əvvəl Azərbaycana başçılıq edənlərin heç biri bu addımı atmağa cəsarət etmədilər!**

Hətta özlərini "demokrat" adlandıran AXC-Müsavat cütlüyünün iqtidarı da!

*Ulu Öndərimiz habelə qəzetlərin "Azərbaycan" nəşriyyatına yığılıb qalmış borcunu da dövlət hesabına ödətdirdi, mətbuatı əlavə dəyər vergisindən azad etdi.*

Heydər Əliyev yolunu şərəflə davam etdirən Prezident İlham Əliyev "Əməkdar jurnalist" fəxri adını bərpa etdi, KİV-in inkişafına Dövlət Dəstəyi Konsepsiyasını imzalayaraq bu sahəyə sistemli dövlət qayğısını yaratdı. Artıq neçə illərdir ki, müstəqil qəzetlər qrantlı layihələr vasitəsilə dövlət hesabına maliyyələşir, jurnalistlərə pulsuz mənzillər verilir, müxtəlif formada yardımlar göstərilir.

❖❖❖

Dünya düzənində informasiyanın özünə möhkəm və təsirli mövqe tutması, yeni texnologiyaların meydana gəlməsi, sahənin sürətli inkişafı və yaranan gerçəkliklər medianın real vəziyyətinin və inkişaf perspektivlərinin də nəzərə alınmasını tələb edir.

**Bu məqsədlə dövlət başçısı cənab İlham Əliyev 12 yanvar 2021-ci ildə "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman vermişdir. Bununla da cənab İlham Əliyev media sahəsində islahatların aparılması, daha dəqiq desək, dərinləşdirilməsi ilə bağlı öz iradəsini ortaya qoymuşdur.**

**Görünən odur ki, mövcud vəziyyət nizamlanmanı, qayda yaratmağı, gerçəkləri nəzərə almağı tələb edir:**

Qeyd etdiyimiz kimi, artıq yeni media platformaları, informasiyanı ötürmək üçün yeni texnologiyalar, üsullar yaranıb.

Jurnalistin baş verən yeniliklər barədə oxucuya dərhal informasiya çatdırması məsələsi görünməmiş dərəcədə sürətlənib.

Həm də etiraf olunmalıdır ki, sözü və təsviri daha sürətlə yayan elektron media hazırda sosial şəbəkəyə uduzmaqdadır.

**Sosial şəbəkə isə peşəkarlıqdan, cəmiyyətə obyektiv mövqedən zəruri informasiya çatdırılmasından, insanları vacib bilgilərlə maarifləndirmədən çox uzaqdır.**

**Operativliklə peşəkarlığın qərəzsizlik və dürüstlük müstəvisində birləşdirilməsinə ciddi ehtiyac duyulur.**

*Bütün bunlara söz azadlığı prizmasından baxılsa da, milli maraqlar müəyyən təhlükələri önləməyi və qarşılamağı tələb edir. Xüsusən informasiya istehsalçısının fəaliyyətinin şəffaflığının artırılması baxımından.*

**Bu gün dövlətin informasiya təhlükəsizliyinin qorunması mühüm əhəmiyyətli məsələlərdən biridir!**

Odur ki, media ilə bağlı qanunvericiliyin daim təkmilləşdirilməsi, yeniliklərin, habelə xoşagəlməz meyillərin nəzərə alınaraq qarşılanması diqqətdən yayınmamalıdır.

❖❖❖

*Media haqqında qanun layihəsində diqqət çəkən ən mühüm məqamlardan biri jurnalistlərin vahid reyestrinin yaradılmasıdır.*

Bu qanuna əsasən ilk dəfə olaraq Azərbaycanda vahid media reyestri tərtib ediləcəkdir. Bu reyestrdə ölkədə mövcud olan KİV və jurnalistlər barədə zəruri informasiyalar olacaqdır.

ƏVVƏLA:

▪ Hər bir KİV barədə istənilən vaxt bu reyestrdən operativ şəkildə zəruri məlumatlar əldə ediləcəkdir;

▪ Həmin məlumatlar hər kəs üçün əlçatan olacaqdır;

▪ Məlumatlar həm də hər KİV və hər jurnalist barədə obyektiv və dolğun təsəvvür formalaşmasına yardımçı olacaqdır.

DİGƏR TƏRƏFDƏN:

▪ Ölkənin jurnalist təsərrüfatının vəziyyətini əks etdirəcək;

▪ Jurnalistlərin təhsili, təcrübəsi və peşəkarlığının təhlilinə imkan yaradacaq;

▪ KİV-in və jurnalistlərin problem və qayğılarını müəyyənləşdirməyə kömək göstərəcək;

▪ Dövlətin bu sahə və sahənin problemləri ilə bağlı məsələləri dərindən öyrənib təsirli tədbirlər görəcəyi anda doğru istiqamətə yönəldəcəkdir.

❖❖❖

Qanun yaradıcılığı çətin və mürəkkəb prosesdir.

Nə qədər insan varsa, o qədər də fikir var - söyləyib müdriklər.

Müzakirələr vaxtı ən müxtəlif fikirlərin söylənməsi, təkliflərin verilməsi normaldır.

Kiminsə narazı qalması da təbii qarşılanmalıdır.

Xüsusən "əbədi inkarçılar"ın olduğu bir zamanda.

*Lakin niyyət xoş və sağlam olanda sonda ortaya dəyərli bir məhsulun çıxacağı şübhə doğurmur.*

İnformasiya yayımı, informasiya mübarizəsi və informasiya müharibəsi reallıqdır.

Bütün bu proseslərin arxasında kiminsə, hansı qurumunsa, yaxud hər hansı dövlətinsə maraqları dayanır!

**Bizim hər birimizin və bütövlükdə xalqımızın ən böyük marağı isə, sözsüz, milli maraqlardır!**

**Bunu hər bir ölkə vətəndaşı kimi, informasiya sahəsində çalışan insan da bilməli və mütləq nəzərə almalıdır.**

**Biz jurnalistlər informasiya bolluğu və rəngarəngliyi içərisində dövlətimizin informasiya siyasətini uca tutmağı, vicdan və peşəkarlıqla reallaşdırmağı bacarmalıyıq!**

**Bunu bizdən həm də anamız Azərbaycan tələb edir!**

**Bəxtiyar SADIQOV**

# Brüssel qələbəsi

## Prezident İlham Əliyev dövlətimizin maraqlarını təmin etdi

*Əvvəli 1-ci səh.*

Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri də beynəlxalq təşkilatlarla - NATO, ATƏT, AŞ PA, Avropa İttifaqı, İslam Əməkdalıq Təşkilatı və digər nüfuzlu qurumlarla fəal əməkdaşlığın həyata keçirilməsidir. Müstəqilliyinin bərpasından sonra beynəlxalq təşkilatlarla əlaqələrini getdikcə möhkəmləndirən respublikamız həm siyasi, həm də iqtisadi dividendlər qazanıb. Rəsmi Bakının əməkdaşlığın inkişafına böyük önəm verdiyi nüfuzlu təşkilatlardan biri də Avropa İttifaqıdır.

Bu qurumla Azərbaycan arasındakı son 15 ildə reallığa çevrilən iqtisadi münasibətlərə nəzər yetirsək, əlaqələrin hansı səviyyədə olduğunu aydın şəkildə görə bilərik. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin demək olar ki, 50 faizini üzv ölkələrlə olan ticari əlaqələr təşkil edir. Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 30 milyard dollara yaxın investisiya yatırılıb. Azərbaycan Avropa İttifaqına üzv olan 9 dövlət ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu isə o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan yalnız enerji sahəsində deyil, ümumiyyətlə, təhlükəsizlik aspektində Avropa üçün çox vacib tərəfdaşa çevrilib.

Əməkdaşlığa gəlincə, respublikamız hələ 1996-cı ildən bu təşkilatla tərəfdaşlıq və əməkdaşlıq sazişi, daha sonra 2004-cü ildən Avropa qonşuluq siyasəti və nəhayət, 2009-cu ildən "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir. Azərbaycan Avropa İttifaqının 24 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 üzv ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması sazişləri, 9 üzv ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri imzalayıb.

2018-ci ilin iyul ayında isə tərəflər arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" Azərbaycan-Avropa İttifaqı əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını bir daha müəyyənləşdirdi.

Dövlətimizin başçısının Brüsselə bu səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə keçirdiyi görüş və Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirakı isə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına müsbət töhfəsini verdi. Həm də bir sıra sahələr üzrə əməkdaşlıq prioritetləri nəzərdən keçirildi.

Ümumiyyətlə, İlham Əliyevin yürütdüyü müstəqil siyasət nəticəsində hazırda Aİ ilə demək olar ki, bütün sahələrdə əməkdaşlıq mövcuddur. Bu da onu göstərir ki, Cənubi Qafqazın lider ölkəsi dünyanın güclü təşkilatlarından biri ilə strateji xarakterli əməkdaşlıq istiqamətində ciddi addım atır.

Azərbaycan Prezidentinin Belçika səfərinə ümumi nəzər salsaq görərik ki, onun keçirdiyi görüşlər Azərbaycanla Avropa İttifaqı və Qərb arasında münasibətlərin, siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edir.

### Ermənistan dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq etdi

Prezidentin bu səfərində əsas diqqət Ermənistanın baş naziri Nikol Paşinyanla keçiriləcək görüşə köklənmişdi. İlham Əliyev Soçi səfərində olduğu kimi, Brüsselə də Qalib Sərkərdə kimi getmişdi. Elə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə də İlham Əliyev həqiqətləri açıqladı.

Prezident müharibədən ötən bir il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda gördüyü böyük işləri göstərərək dünyaya bəyan etdi ki, Azərbaycan hər zaman olduğu kimi sülh tərəfdarıdır. Öhdəliklərin yerinə yetirilməsi də bölgədə təhlükəsizliyin təminatına xidmət edəcək. Ancaq görünən odur ki, Ermənistan yenə də hansısa bəhanələr uydurmaqla vaxt uzadır.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi də gündəmə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib.

Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Bildirilib ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcəkdir. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinib. Avtomobil yolunun marşrutunun müəyyən edilməsi ilə bağlı müzakirələr isə davam etdiriləcək.

Həm Soçi, həm də Brüssel görüşləri bir daha təsdiq etdi ki, Azərbaycan üçtərəfli Bəyanatın imzalanmasından ötən 12 ay ərzindəki danışıqlar prosesində daim sözünə sadiq, məqsədləri və mövqeyi bəlli olan tərəf kimi çıxış edir. İlham Əliyev Belçikada da konkret olaraq tələb və istəklərini Ermənistan başda olmaqla bölgədə marağı olan bütün aktorların diqqətinə çatdırdı. Bir daha təsdiq olundu ki, Azərbaycan Zəngəzur dəhlizinin tezliklə açılmasında israrlıdır və tezliklə bu, reallığa çevriləcək. Azərbaycan Prezidentinin söylədiyi kimi - Ermənistan istəsə də, istəməsə də...

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# NATO-dan İlham Əliyevə tam dəstək

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısının NATO-nun Baş katibi Yens Stoltenberqlə keçirdiyi görüş, Şimali Atlantika Şurasının iclasında iştirakı və mətbuata bəyanatı bunu bir daha təsdiqləyən reallıqlardır.

### Azərbaycan - NATO münasibətlərinin tarixi

Azərbaycanla NATO arasındakı ilk təmasların tarixi ölkəmizin bir sıra Mərkəzi və Şərqi Avropa dövlətləri ilə birlikdə NATO-nun yeni yaradılmış məşvərətçi forumuna - Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən Avro-Atlantik Tərəfdaşlıq Şurası) qoşulduğu 1992-ci ilin mart ayına təsadüf edir.

Azərbaycanla NATO arasında məzmunlu tərəfdaşlığın əsası isə Ümummilli Lider Heydər Əliyevin 4 may 1994-cü ildə Sülh Naminə Tərəfdaşlıq Çərçivə Sənədinin imzalanması ilə qoyulub.

Azərbaycanın NATO ilə tərəfdaşlığı onun Avro-Atlantik strukturlarına inteqrasiya məqsədinə xidmət edir. Ölkəmizin NATO ilə tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatları, meydana gələn təhlükəsizlik təhdidləri və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli istiqamətlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında Azərbaycanın qarşılıqlı maraqlar əsasında NATO ilə əməkdaşlıq etməsi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında da öz əksini tapıb.

Azərbaycan fərdi tərəfdaşlıq məsələlərini özündə ehtiva edən əsas sənədlərdə əks olunmuş prinsiplərin yerinə yetirilməsi məqsədi ilə NATO-nun müvafiq tərəfdaşlıq mexanizmlərindən fəal istifadə edir.

1996-cı il SNT Təqdimat Sənədi əsasında hazırlanan Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı çərçivəsində Azərbaycan hər il 200-dən artıq tədbirdə iştirak edir. Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı NATO-ya üzv və bəzi tərəfdaş ölkələr tərəfindən təşkil edilən təcrübə mübadiləsinə, hazırlığın artırılmasına, həmçinin ekspert müzakirələrinə xidmət edən tədbirlərdə iştiraka şərait yaradır.

### Əfqanıstanı sonuncu tərk edən Azərbaycan sülhməramlıları olub

Prezident İlham Əliyevin Belçikaya budəfəki səfərində də keçirdiyi görüşlərdə tərəflər arasındakı münasibətlərin daha da gücləndirilməsi məsələləri müzakirə mövzusu oldu. NATO-nun Baş katibinin dəvəti əsasında İlham Əliyevlə alyansın Baş katibi Yens Stoltenberq arasında keçirilən görüşdə Baş katib Azərbaycanın alyansın dəyərli tərəfdaşı olduğunu deyərək Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olublar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyəsinə töhfə veriblər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Alyansın mənzil-qərargahına 7-ci dəfə səfər etdiyini söyləyən Prezident İlham Əliyev isə Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu bildirdi və dedi ki, hərbçilərimiz 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət ediblər.

Söhbət zamanı postmünaqişə dövründə regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı və Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlara hazır olduğu bildirildi.

NATO-nun Şimali Atlantika Şurasının iclasında isə Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparıldı.

NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. Bu mövqenin NATO-nun sammit sənədlərində də dəfələrlə təsbit olunduğu qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycanın regionda oynadığı rol, xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyət, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə hazırlıq kimi məsələlər haqqında ətraflı məlumat verdi.

### Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır

İlham Əliyev ilə Yens Stoltenberqin birgə mətbuat konfransında isə Baş katib bu görüşü NATO-nun Azərbaycanla tərəfdaşlığında dialoqun və qarşılıqlı anlaşmanın önəminin göstəricisi adlandırdı.

Qeyd edildi ki, Azərbaycanla təşkilat arasında uzun illər ərzində güclü əməkdaşlıq olub. Bu gün əməkdaşlıq bir çox sahələri, bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan sahələri əhatə edir.

İlk olaraq Azərbaycanın Əfqanıstandakı sülhməramlılarının fəaliyyətinə toxunan Baş katib bildirdi ki, Azərbaycan təşkilatın Əfqanıstandakı sabiq missiyasına mühüm töhfələr verib: "Azərbaycan Silahlı Qüvvələri Kabil hava limanında bu yay aparılan təxliyə işləri zamanı təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamışdır. NATO müttəfiqləri bir neçə gün ərzində 120 mindən çox insanın təyyarə ilə çıxarılaraq təhlükəsizliyinə nail olmuşdur. Bütün səyləriniz və dəstəyiniz üçün çox sağ olun. Cənubi Qafqazda təhlükəsizlik və sabitlik bizim hamımız üçün vacibdir. Bütün insanların sülh şəraitində gələcəyini təmin etmək üçün biz hər ikisi NATO-nun dəyərli tərəfdaşı olan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyirik. Prezident Əliyev, icazə verin NATO-nun mənzil-qərargahına gəldiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirim. Mən NATO və Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün işimizin davam etdirilməsini səbirsizliklə gözləyirəm".

### Yeddinci səfər - əməkdaşlığın dinamizminin göstəricisi

Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib. Bunu Prezident də bildirdi. Müfəssəl xarakterə malik əməkdaşlıq möhkəm təməl üzərində qurulub. Bu səfərin 7-ci olması isə əməkdaşlığın dinamizmini göstərir.

İlham Əliyev həmçinin diqqətə çatdırdı ki, təkbətək görüşdə əməkdaşlıqla bağlı gələcək planlar və Cənubi Qafqazda postmüharibə vəziyyəti müzakirə edilib: "Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Bizim səylərimiz regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi məqsədini daşıyır. Bunun üçün ən yaxşı yol kommunikasiyaların açılması, aktiv dialoqun qurulması və yenidən qonşu olmağı öyrənməkdir. Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik".

Prezident bir daha Azərbaycanın Zəngəzur dəhlizinin açılmasında israrlı olduğunu söyləyərək Ermənistana və havadarlarına mesaj ünvanladı.

Konfransda İlham Əliyevə ünvanlanan "Siz həmin dəhlizdə Ermənistanın gömrük yoxlamalarını qəbul edərsinizmi? Azərbaycanın bununla bağlı fikri nədir?" suallarına cavabında Azərbaycan Prezidenti konkret fikir bildirdi: "Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir".

### Ermənistana növbəti xəbərdarlıq

Gömrük postu olmasına gəlincə isə, dövlətimizin başçısı deyib ki, bu gün Azərbaycanın nəzarət etdiyi Laçın dəhlizində gömrük yoxdur. Əgər Ermənistan Zəngəzur dəhlizinə gömrük postu təyin etsə, Azərbaycan da Laçın dəhlizində analoji addımı atacaq: "Laçın dəhlizində gömrük yoxdur. Ona görə də Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqlidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması".

Bağlılığa gəlincə, Prezident dedi ki, nəqliyyat əlaqələrinin inteqrasiyası həqiqətən də region üçün böyük imkandır. Çünki Zəngəzur dəhlizi təkcə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına çıxış əldə etməyi üçün deyil, həm də Ermənistanın Naxçıvan vasitəsilə İranla dəmir yolu əlaqəsi üçündür. Bununla həmçinin Ermənistan da Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi əldə edir. Ermənistan Azərbaycan ərazisindən Rusiya ilə dəmir yolu əlaqəsi əldə edir. Bu gün onların belə bir dəmir yolu əlaqəsi yoxdur. Bu, regionda həqiqətən müsbət ab-hava yarada bilər və bu, hər kəsin xeyrinə olacaqdır. Hesab edirəm ki, bu imkanların düzgün dəyərləndirilməsi dinc gələcəyimizin planlaşdırılması baxımından olduqca vacibdir.

İlham Əliyev bir daha Azərbaycanın buna hazır olduğunu bəyan etdi. Baş katib Yens Stoltenberq isə dedi ki, NATO qarşıdurmanın bitməsini və hərbi əməliyyatların dayandırılması imkanının əldə edilməsini alqışlayır və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, dialoqun qurulması səylərini dəstəkləyir. Əsas məsələ zorakılığın yenidən alovlanmasına rəvac verə biləcək addımlardan çəkinmək və qalan məsələləri diplomatik yollarla həll etməkdir: "NATO tərəf tutmur, çünki Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır. Beləliklə, biz diplomatik səyləri, üçtərəfli səyləri dəstəkləyirik və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərini də güclü şəkildə dəstəkləyirik".

Göründüyü kimi, NATO Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətində irəli sürdüyü təklifləri dəstəkləyir. Ermənistan nə qədər vaxt udmağa çalışıb bəhanələr gətirsə də, tezliklə Zəngəzur dəhlizi açılacaq və Azərbaycan regionda yeni nəqliyyat-logistik mərkəzə çevriləcək.

***R. BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# İqtisadi inkişaf, sosial rifah




## Mineral gübrələrin səyyar satışı fermerlərin işini asanlaşdırıb

“Aqroservis” ASC tərəfindən payızlıq əkin mövsümü ilə əlaqədar cari ilin sentyabr ayından etibarən rayon mərkəzlərindən uzaq məsafədə yerləşən kənd və qəsəbələrdə mineral gübrələrin səyyar satışı xidmətinə başlanılıb.

ASC-nin bütün regional nümayəndəlikləri rayon bölmələrinin anbarlarından kənd təsərrüfatı məhsulları istehsalçılarının tələbatına uyğun olaraq mineral gübrələrlə tam təchiz edilmiş, fermerlərin sərfəli qiymətlərlə gübrələri əldə etməsinə şərait yaradılmışdır.

Payız əkinləri üçün tələbata uyğun olaraq “Aqroservis” tərəfindən bütün regionları əhatə edən səyyar satış zamanı 300-ə yaxın kənd və qəsəbə üzrə səyyar xidmət təşkil edilib. Belə səyyar xidmətlərdən 2000-ə yaxın fermer yararlanıb. Səyyar satış zamanı fermerlər ammofos, kükürdlü ammofos, ammonium-nitrat, ammonium-sulfat, kalium-sulfat, karbamid və nitroammofoska kimi mineral gübrələri əldə ediblər.

Səyyar satışın həyata keçirilməsində əsas məqsəd gübrələrin alışı zamanı vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşısının alınması, həmçinin vətəndaşlara ASC-nin xidmətlərinə əlçatanlığının, yaxınlığının təmin edilərək vətəndaş məmnuniyyətinə nail olmaqdır. Səyyar satış vasitəsilə vətəndaşların mineral gübrələri asanlıqla əldə etməsi əkinə cəlb edilən bütün torpaqlarda gübrələrdən istifadə edilməsinə şərait yaradır ki, bu da məhsuldarlığın artmasına öz müsbət təsirini göstərir.



# Hədəf

## Şərqi Zəngəzur və Qarabağı dinamik inkişaf edən regiona çevirməkdir

**Artıq bir ildən çoxdur ki, işğaldan azad edilmiş Azərbaycan torpaqlarında infrastruktur tədbirləri həyata keçirilir, kənd təsərrüfatının, iqtisadiyyatın digər sahələrinin inkişafı, dağıdılan və məhv edilən şəhərlərin, ekoloji fəlakətlərə məruz qalan yerlərin bərpası üçün mühüm layihələr icra olunur. Və bütün bunlar dünyanın gündəmindən düşmür, diqqətindən kənarda qalmır.**

Bu isə təsadüfi deyil. Çünki görülən işlər üçün qürur hissi keçirməyə ciddi əsaslar mövcuddur. Lakin Prezident İlham Əliyev bu uğurları əldə bayrağa çevirmir, sadəcə, görülən işlərdən növbəti mərhələyə keçid üçün tramplin kimi istifadə edir.

Xəbər verildiyi kimi, bu il dekabrın 10-da dövlət başçısı “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncam imzalamışdır. Bu sənəddə bir il ərzində görülən işlərin uğurlu nəticələrə səbəb olması göstərilmiş və yeni hədəflər təyin edilmiş, prioritetlər müəyyənləşdirilmişdir. Göstərilmişdir ki, işğaldan azad edilən ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası və bütünlükdə bölgədə dayanıqlı inkişafın təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Prezident icra olunan layihələrin işğaldan azad edilmiş ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevriləcəyinə, bu bölgənin ümumi iqtisadi inkişafda mühüm rol oynayacağına əminliyini bildirmişdir.

Adıçəkilən sərəncamda dövlət başçısı Nazirlər Kabinetinə 3 ay müddətində aşağıdakı təklifləri hazırlamağı həvalə etmişdir: işğaldan azad edilmiş ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması məqsədilə vergi və digər sosial güzəştlərin, gömrük və vergi güzəştlərinin tətbiqi; bölgədə fəaliyyət göstərən sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi; sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi. Sənəddə həmçinin bölgədə ekoloji təmiz texnologiyaları tətbiq edən, “yaşıl artım” yaradan və bərpaolunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi və yaşayış massivlərinin inşası ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının inkişafı önə çəkilmişdir.

### Prezidentin 10 dekabr tarixli sərəncamı məhz bu məqsədə hesablanıb

Təbii ki, biz tezliklə Nazirlər Kabinetinin hazırlayacağı təkliflər paketi ilə tanış olacağıq. Amma indidən işğaldan azad olunmuş ərazilərdə görülən və planlaşdırılan işlər ekspertlərin, iqtisadçıların, müxtəlif dövlət qurumlarının və xarici ekspertlərin diqqət mərkəzindədir. Humanitar və tarix sahəsində çalışan alimlər belə hesab edirlər ki, böyük qələbədən sonra Azərbaycan dövləti üçün tarixi-mədəni dəyərlərin və sözügedən ərazilərdə düşmənin törətdiyi vəhşiliklərin bütün dünyaya əyani nümayiş etdirilməsi üçün əlavə imkanlar yaranmışdır. Dünya Azərbaycanın böyük qələbəsinin nə qədər haqlı və ədalətli olduğunu artıq əyani şəkildə dərk etməkdədir. İşğaldan azad olunmuş ərazilərdə dağıdılan, viran qoyulan saysız-hesabsız tarixi-mədəni abidələrin, minlərlə yaşayış məntəqəsinin hər biri ayrı-ayrılıqda erməni faşizmini ifşa etmək gücünə qadirdir.

Digər tərəfdən, iqtisadçı ekspertlər azad olunmuş ərazilərin zəngin iqtisadi potensiala malik olduğunu qeyd edirlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) həmin ərazilərdəki quruculuq işlərini mütəmadi araşdıran və bununla bağlı vacib xülasələri hazırlayıb yayan ən nüfuzlu “beyin mərkəzi”dir. Mərkəzin mütəxəssislərinin hesablamalarına görə, Şərqi Zəngəzur və Qarabağın ölkə iqtisadiyyatına inteqrasiyası ilə yaranacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da tərəddüdsüz və xüsusi fiskal gərginlik yaşamadan çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcək.

Məlumdur ki, regionun ciddi sənaye potensialı ilə yanaşı, turizm imkanları da mövcuddur. Azad edilmiş ərazilərdə ölkənin ən məşhur meşələri var. Laçın yasaqlığı işğaladək dağ keçisi, cüyür, çöl donuzu, turac, kəklik kimi meşə heyvanlarının və quşlarının məskəni idi. Bu yerlərin, eyni zamanda Şuşa şəhərinin və digər rayonların füsunkar təbiəti turizm baxımından olduqca əlverişlidir. Eləcə də azad olunmuş ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Maraqlı bir fakt da ondan ibarətdir ki, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 39,6 faizi işğal olunmuş ərazilərdə yerləşir. Bu minvalla regionun ərazilərində mineral su ehtiyatı içki sənayesində yeni emal güclərinin, içki sənayesi-turizm-rekreasiya üçbucağında müasir habın təşkil edilməsinə şərait yaratmaq imkanına malikdir.

Məhz bu baxımdan dövlət başçısının imzaladığı “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncam bölgənin gələcək inkişafını təmin edən ən vacib sənəd kimi xüsusi əhəmiyyət daşıyır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Əsas kapitala 11,7 milyard manatdan çox vəsait yönəldilib

İlin əvvəlindən ötən 11 ay ərzində əsas kapitala 11 milyard 708,1 milyon manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,2 faiz az vəsait yönəldilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 8,7, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 12,9 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 7 milyard 740,4 milyon manatı və ya 66,1 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 79,8 milyon manatı (26,3 faizi) xidmət sahələrinə, 887,9 milyon manatı (7,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 7 milyard 849,2 milyon manatını və ya 67,0 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 7 milyard 784,4 milyon manatı və ya 66,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 54,4, büdcə vəsaitləri 25,2, sair vəsaitlər 7,3, əhalinin şəxsi vəsaitləri 7,2, bank kreditləri isə 5,9 faiz təşkil etmişdir.

## Bakı və Abşeronda “Kənddən Şəhərə” Yeni il yarmarkası keçiriləcək

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 20-30 dekabr tarixlərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə “Kənddən Şəhərə” Yeni il yarmarkası təşkil olunacaq.

Yarmarka Bakı və Abşeron ərazisində 3 fərqli ünvanda keçiriləcək. Yarmarkada əvvəlcədən qeydiyyatdan keçmiş 100-ə yaxın fermer kənd təsərrüfatı məhsullarının satışını həyata keçirəcək. Yarmarkanın təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və bayram ərəfəsində şəhər sakinlərinin kənd təsərrüfatı və qida məhsullarına olan tələbatlarını təbii məhsullarla dolğun şəkildə qarşılamaqdır.

“Kənddən Şəhərə” Yeni il yarmarkası karantin rejiminin tələblərinə tam əməl olunmaqla keçiriləcək. Belə ki, yarmarkanın təşkil olunduğu ərazilərdə mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq, tibbi-profilaktik vəziyyətə, o cümlədən vətəndaşlar arasında sosial məsafənin saxlanılmasına xüsusi nəzarət ediləcək. Həmçinin fermerlərin və yarmarkanı ziyarət edən vətəndaşların temperaturları ölçüləcək, onlar zəruri tibbi ləvazimatlarla (tibbi maska, əlcək, spirt və s.) təmin olunacaqlar.

Qeyd edək ki, “Kənddən Şəhərə” Yeni il yarmarkasında iştirak tamamilə ödənişsizdir. Burada fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi və digər ləvazimatlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edəcəklər. Məhsullarının daşınmasında çətinlik yaşayan fermerlərə isə təşkilatçı qurum tərəfindən logistika dəstəyi göstəriləcək.

“Kənddən Şəhərə” Yeni il yarmarkası aşağıdakı ünvanlarda keçiriləcək:

*Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının yanı)*

*Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, 5B (“İnqilab” kinoteatrının yanı)*

*Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A*

## Bakı-Tbilisi-Qars dəmir yolunda rəqabətqabiliyyətli tariflərin müəyyən edilməsi müzakirə olunub

Rəqəmsal inkişaf və nəqliyyat naziri (RİNN) Rəşad Nəbiyev Bakıda keçirilən 6-cı Azərbaycan-Gürcüstan-Türkiyə Biznes Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri xanım Natiya Turnava ilə görüşüb.

RİNN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Azərbaycan və Gürcüstan üzərindən keçən nəqliyyat dəhlizlərinin potensialının artırılmasının ölkələrimiz arasında yükdaşımaların inkişafına təsiri və beynəlxalq yükdaşımalarda tətbiq olunan tariflər barədə fikir mübadiləsi aparılıb.

Görüş zamanı həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi müzakirə edilib. Layihə üzrə aparılan işlərin sürətləndirilməsi, icra edilmiş işlərin mərhələli şəkildə istismara qəbul edilməsi və layihənin idarəetmə strukturunda dəyişikliklərin edilməsi kimi məsələlər müzakirə predmeti olub. Eyni zamanda iki ölkə arasında Bakı-Tbilisi-Qars dəmir yolu üzrə yükdaşımalara əlavə yük həcminin cəlb edilməsi və rəqabətqabiliyyətli tariflərin müəyyən edilməsinə dair müzakirələr aparılıb.

## Sənayenin qeyri neft-qaz sektoru üzrə məhsul istehsalında 20,7 faiz artım qeydə alınıb

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-noyabr aylarında 47,9 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,5 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 20,7 faiz artmışdır. Sənaye məhsulunun 63,8 faizi mədənçıxarma, 30,6 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı eyni səviyyədə qalmış, əmtəəlik qaz hasilatı 23,0 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 93,2, tikinti materiallarının istehsalı 83,7, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 64,3, tütün məmulatlarının istehsalı 53,4, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 31,4, toxuculuq sənayesi məhsullarının istehsalı 30,5, kağız və karton istehsalı 28,4, kimya sənayesi məhsullarının istehsalı 26,3, hazır metal məmulatlarının istehsalı 24, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,3, metallurgiya sənayesi məhsullarının istehsalı 18,9, mebel istehsalı 18,6, neft məhsullarının istehsalı 14,6, kompüter, elektron və optik məhsulların istehsalı 11,9, qida məhsullarının istehsalı 11,3, içki istehsalı 3,7, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 1,6 faiz artmış, maşın və avadanlıqların istehsalı 11,1, geyim istehsalı 16,4, ağacın emalı və ağacdan məmulatların istehsalı 18,9, elektrik avadanlıqlarının istehsalı 19,1, poliqrafiya məhsullarının istehsalı 44,1, sair nəqliyyat vasitələrinin istehsalı 90,2 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 7,2, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 14,9 faiz artmışdır.

## Pulumuzun 50 faizə yaxını ərzağa xərclənir

11 ayda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 38 milyard 327,5 milyon manatlıq, o cümlədən 20 milyard 751,2 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 17 milyard 576,3 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

2020-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,0, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,5, qeyri-ərzaq malları üzrə 3,6 faiz artmışdır.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 49,1 faizi ərzaq məhsullarının, 5,0 faizi içkilər və tütün məmulatlarının, 15,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,0 faizi avtomobil benzini və dizel yanacağının, 5,3 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,0 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 15,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Yanvar-noyabr aylarında istehlak mallarının dəyər ifadəsində 26,9 faizi ticarət müəssisələri, 50,5 faizi fərdi sahibkarlar tərəfindən, 22,6 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2020-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 19,3 faiz artmış, fərdi sahibkarlar üzrə 2,7 faiz, bazar və yarmarkalarda 0,4 faiz azalmışdır.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 347,9 manatlıq, o cümlədən 188,4 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 159,5 manatlıq qeyri-ərzaq malları almışdır.



# AÇG-nin 11 aylıq gəlirləri açıqlanıb

*Prezident İlham ƏLİYEV: “Bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir”*

“Azəri-Çıraq-Günəşli” (AÇG) 27 ildir etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və 24 ildir ahəngdar şəkildə neft-qaz verir. Cari il sentyabrın 18-də AÇG-dən 4 milyardıncı barel neft hasil edilib.

Keçən il avqustun 10-da “Qarabağ” yatağında quraşdırılacaq stasionar özülün əsas hissələrindən birinin - dayaq blokunun Heydər Əliyev adına Bakı Dəniz Özülləri Zavodundan (BDÖZ) Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə AÇG-də hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu bir daha vurğulamışdır: “Azəri-Çıraq-Günəşli” ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir”.

AÇG-nin gəlirləri davam edir. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində cari ilin yanvar-noyabr aylarında 5 milyard 272 milyon dollar həcmində gəlir əldə edib. ARDNF-nin 2001-ci ildən indiyədək AÇG layihəsi üzrə gəliri 154 milyard 677 milyon dollar olub.

1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər. Hazırda mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər. 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2050-ci ilin əvvəlinədək davam edəcək və qarşıdakı illərdə AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

Xatırladaq ki, “Yeni əsrin müqaviləsi” adını alan bu saziş imzalanarkən layihədə iştirak edən şirkətlər qrupunda heç bir dəyişiklik edilməmişdir. Bu da Azərbaycanın mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yaratdığının daha bir təsdiqidir. Beləliklə, hazırda AÇG-də bp 30,37, SOCAR 25, MOL 9,57, İNPEKS 9,31, “Ekvinor” 7,27, “EksonMobil” 6,79, TPAO 5,73, İTOÇU 3,65, ONGC Videş Limited (OVL) 2,31 faiz payla iştirak edirlər.

AÇG-də 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur. İlin ilk üç rübündə gündəlik hasilat “Çıraq”dan 29 min, “Mərkəzi Azəri”dən 109 min, “Qərbi Azəri” 115 min, “Şərqi Azəri”dən 77 min, “Dərinsulu Günəşli”dən 87 min və “Qərbi Çıraq”dan 44 min barel olub. Bu platformalardan birlikdə gündə orta hesabla 461 min barel və 9 ayda ümumilikdə təxminən 126 milyon barel, yəni 17 milyon ton hasilat əldə edilib.

Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 136 neft hasilatı, 30 su injektor və 8 qaz injektor quyusu istismarda olub. 2021-ci ilin ilk üç rübündə AÇG-də 7 neft hasilatı və 3 injektor quyusu qazılıb.

AÇG-nin işlənməsinin növbəti mərhələsi olan “Azəri Mərkəzi Şərqi” (ACE) layihəsi üzrə də işlər davam edir. Hazırda bu layihə çərçivəsində eyniadlı platforma tikilir. Məlumdur ki, koronavirus pandemiyasının təsirləri heç bir sahədə, heç bir işdən yan keçmir. Bununla belə ACE platformasının inşası BDÖZ-də və Bibiheybətdəki tikinti-quraşdırma sahəsində uğurla aparılır. Məqsəd bu platformadan ilk neftin 2023-cü ildə alınmasıdır.

“Azəri Mərkəzi Şərqi” platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Orada hasil olunan qaz ümumi sistemimizə daxil edilir. Belə ki, AÇG-dən çıxarılan səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur. Mavi yanacağın xeyli hissəsi isə Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə “Azəriqaz”ın şəbəkəsinə ötürülür. Məsələn, 2021-ci ilin ilk üç rübündə AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 2,2 milyard kubmetr səmt qazı verilib. Qazın qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulub.

AÇG-dən hasil edilən neft və səmt qazı platformalardan sualtı xətlər vasitəsilə Səngəçala çatdırılır və buradan təyinatı üzrə nəql olunur. AÇG neftini dünya bazarlarına Qərb İxrac Boru Kəməri və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri çatdırır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## 4 ildə 151 min şəxsə əlillik təyin edilib

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin ötən dövründə keçən ilin müvafiq dövrünə nisbətən iki dəfə çox olmaqla 54 minə yaxın şəxsə əlillik təyin edilib.

Onlardan 16500-ü ilkin, qalanı təkrar təyinatlardır. Əlillik təyin edildikdən sonra onlara əlillik dərəcələri üzrə proaktiv qaydada elektron sistem üzərindən pensiya və ya müavinətlərin təyinatı aparılıb. Həmçinin bir sıra xüsusi kateqoriyalara aid əlilliyi olan şəxslərə (müharibə əlilləri, I dərəcə əlilliyi olanlar və b.) pensiya və ya müavinətlə bərabər, Prezidentin aylıq təqaüdləri də təyin olunub.

Ümumilikdə 2018-2021-ci illərdə 151 min şəxsə əlillik təyinatı aparılıb.

Əlilliyi olan şəxslərə ödənilən sosial ödənişlərdə də ciddi artımlar qeydə alınıb. 2018-ci ilin əvvəli ilə müqayisədə onlara ödənilən pensiyaların orta aylıq məbləği 70 faizə yaxın, müavinətin orta aylıq məbləği 2 dəfə artıb. Təqaüdün maksimum məbləği isə 54 faiz artıb.

Əlilliyi olan şəxslərə pensiya, müavinət, təqaüd formasında ödənişlərin ümumi illik məbləği isə 2018-2021-ci illərdə 55 faiz artaraq, 1 milyard 611 milyon manata çatıb.

## Nağdsız ödənişlərin həcmi artacaq

Azərbaycan Mərkəzi Bankı (AMB) 2022-ci ildə nağdsız ödənişlər üzrə qeydə alınan nəticələrin ikiqat artırılmasını hədəfləyir.

Bu barədə AMB-nin Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova dekabrın 15-də “Rəqəmsal həllər və təhlükəsizlik” mövzusunda keçirilən onlayn formatda təlimdə deyib.

# Tovuzda şəhidlərin xatirəsinə inşa edilən abidə kompleksinin açılışı olub

**Tovuz rayonunun Əsrik Cırdaxan kəndində şəhidlərin xatirəsinə abidə kompleksinin açılışı olub. Açılış mərasimində rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, şəhidlərin döyüş yoldaşları, müharibə veteranları və kənd sakinləri iştirak ediblər.**




Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Dövlət Himni səsləndirilmişdir. Sonra iştirakçılar abidənin önünə gül dəstələri düzmüşlər.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov çıxış edərək abidə kompleksinin tikintisində əməyi olanlara minnətdarlıq etmiş, şəhid ailələrinə səbr, qazilərimizə şəfa diləmişdir.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Tovuz rayon şöbəsinin sədri Əli Əliyev, Əsrik Cırdaxan kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Telman Əmiraslanov, kənd bələdiyyəsinin sədri Mübariz İbrahimov, Koxanəbi kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Sadiq Abulov, şəhid Murad Ələkbərovun atası Məzahir Ələkbərov və şəhid Qəzənfər İsmayılovun qardaşı Yolçu İsayev çıxış etmişlər. Sonda məktəblilər şəhidlərimizin xatirəsinə həsr olunan şeirlər söyləmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Paytaxtın Binəqədi rayonunda küçələrdən birinə şəhid jurnalist Məhərrəm İbrahimovun adı verilib






**Paytaxtın Binəqədi rayonunda küçələrdən birinə şəhid jurnalist Məhərrəm İbrahimovun adı verilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyəti Binəqədi rayonunun M.Ə.Rəsulzadə qəsəbəsindəki Sahilboyu küçəsinə Məhərrəm İbrahimovun adının verilməsi barədə qərar qəbul edib.

Xatırladaq ki, 2021-ci il iyunun 4-də saat 11:00 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş bir qrup jurnalisti aparan "KamAZ" markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində üç nəfər - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Məhərrəm İbrahimov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# Mingəçevir Dövlət Universitetində beynəlxalq elmi konfrans keçirilib

**Mingəçevir Dövlət Universitetində (MDU) Təhsil və İqtisadiyyat nazirliklərinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

"Zoom" platforması üzərindən onlayn formatda təşkil edilən beynəlxalq konfransa dünyanın 15 ölkəsindən 72 ali təhsil müəssisəsinin və elmi-tədqiqat institutunun akademik heyət üzvləri və alimləri qatılıb.

Konfrans iştirakçılarını salamlayan MDU-nun rektoru Ş.Bayramov aktual mövzuya həsr edilmiş və MDU tarixində ilk dəfə olaraq keçirilən beynəlxalq səviyyəli elmi tədbirin təşkilində dəstəyi və əməyi olanlara, təşkilat komitəsinin üzvlərinə, məruzəçilərə, məqalə və tezis müəlliflərinə təşəkkürünü bildirib.

Rektor konfransın əsas məqsədinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və rəşadətli Azərbaycan əsgərinin şücaəti sayəsində əldə olunan tarixi Zəfərdən sonrakı mərhələnin reallıqları nəzərə alınmaqla müvafiq istiqamətlər üzrə aparılan elmi-tədqiqatların nəticələrinin təqdim edilməsindən ibarət olduğunu vurğulayıb. Bildirib ki, beynəlxalq konfrans Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən, eləcə də Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələri əhatə edən mövzularda elmi diskussiya platformasının yaradılmasını hədəfləyir.

Təhsil nazirinin müavini Firudin Qurbanov MDU rəhbərliyini və kollektiv üzvlərini universitetdə ilk beynəlxalq elmi konfransın keçirilməsi münasibətilə təbrik edib, tədbirin təşkilatçılarına uğurlar arzulayıb. Regional universitetin belə bir böyük tədbirin təşkilatçısı olmasını təqdirəlayiq hal kimi qiymətləndirən F.Qurbanov qısa zamanda MDU-da geniş islahatlar aparmaqla tədrisin keyfiyyətinin və elmi-tədqiqatların səmərəliliyinin yüksəldilməsi istiqamətində önəmli addımların atıldığını diqqətə çatdırıb.

Dünyada davamlı inkişafa nail olmağın zəruri vəzifəyə çevrildiyini bildirən nazir müavini konfransın mövzusunun aktuallığından və əhəmiyyətindən bəhs edib. Dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsinin dövlət siyasətinin mühüm prioritetlərindən olduğunu vurğulayan F.Qurbanov hazırda Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə həssaslıqla yanaşan ölkələrdən olduğunu bildirib.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Azərbaycanda dayanıqlı inkişaf strategiyasının həyata keçirilməsi istiqamətində görülən işlərə töhfə verilməsinə hədəflənən belə bir platformanın yaradılmasına görə Mingəçevir Dövlət Universitetinin kollektivinə təşəkkürünü bildirib.

Dünya iqtisadiyyatında cərəyan edən proseslərin, bəşəriyyətin ciddi narahatçılığına səbəb olmuş COVID-19 pandemiyasının Azərbaycan üçün də yeni çağırışlar və reallıqlar yaratdığını diqqətə çatdıran S.Ələkbərov bunlara adekvat cavab vermək üçün dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində qarşıda duran vəzifələrdən bəhs edib. Nazir müavini 44 günlük Vətən müharibəsindən sonra ərazilərin işğaldan azad edilməsinin regionda təhlükəsizlik, sabitlik və rifahın təmin edilməsinə, qarşılıqlı faydalı əməkdaşlığın, iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsinə, yeni beynəlxalq və regional logistika dəhlizlərinin açılmasına və bütövlükdə ölkənin dayanıqlı inkişafına çox ciddi təkan verdiyini bildirib.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov MDU-da ilk dəfə olaraq belə bir beynəlxalq elmi konfransın keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirib və konfransın təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Açılış-plenar iclasında BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Milli Məclisin deputatı Şahin Seyidzadə, Litvanın Mykolas Romeris Universitetinin rektoru İnqa Zaleniene, Türkiyənin KTO Karatay Universitetinin rektoru Bayram Sade, Lənkəran Dövlət Universitetinin rektoru Natiq İbrahimov, Çinin Lancou Maliyyə və İqtisadiyyat Universitetinin prezidenti Venhao Cai, Qırğız İqtisad Universitetinin rektoru Almaz Kadıraliyev və Kiyev Milli İqtisadiyyat Universitetinin rektoru Dmitro Lukyanenko çıxış ediblər.

Sonra konfrans işini üç bölmədə (İqtisad elmləri və idarəetmə; Təbiət və texnika elmləri; Təhsil və humanitar elmlər) davam etdirib.

Beynəlxalq konfransın yekun iclası keçirilib. İclasda MDU-nun rektoru Şahin Bayramov və konfransın bölmə rəhbərləri çıxış ediblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# FHN-in xilasediciləri üçün avstriyalı mütəxəssislərin iştirakı ilə xüsusi təlim təşkil olunub

**Fövqəladə Hallar Nazirliyinin (FHN) və Avstriyanın Federal Daxili İşlər Nazirliyinin səmərəli əməkdaşlığı çərçivəsində Qusar rayonunda dağ alpinizmi və qar uçqunlarında axtarış-xilasetmə üzrə təlimlər təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, təlimlər FHN-in xilasedicilərinə mürəkkəb relyefli və çətin iqlim şəraitində, eləcə də qar uçqunları zamanı yaranmış vəziyyətin qiymətləndirilməsi, axtarış-xilasetmə, zərərçəkmişlərin təxliyəsi və onlara ilkin yardımın göstərilməsi üzrə bilik və bacarıqların artırılması məqsədilə keçirilib. Bununla yanaşı, təlim iştirakçıları müasir texnika və avadanlıqdan istifadə üzrə peşəkar vərdişlərini gücləndirir, bu istiqamətdə beynəlxalq təcrübəni öyrənirlər.

Təlimə FHN-in Xüsusi Riskli Xilasetmə Xidməti, Şimal Regional Mərkəzi və Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti və xüsusi texnikası, təlim görmüş itlər cəlb edilib.

Dekabrın 19-dək davam edəcək təlim nəzəri və praktiki hissələrdən ibarətdir.

Təlimin gedişində şəxsi heyətə avstriyalı mütəxəssislər tərəfindən FHN-in yeni aldığı qar uçqunları zamanı istifadə olunan müasir axtarış-xilasetmə texnika və avadanlığı, onların taktiki-texniki xüsusiyyətləri və istifadə qaydaları, qar uçqunu altında qalan zərərçəkmişlərin xilas edilməsi və təxliyəsi, müvafiq təhlükəsizlik qaydaları üzrə nəzəri məşğələlər keçirilib.

Praktiki hissədə avstriyalı mütəxəssislərin təlimatları əsasında xilasedicilər mürəkkəb relyefli dağlıq ərazilərdə əlverişsiz hava şəraitində axtarış-xilasetmə işlərinin təşkili, qar uçqunu altında qalmış zərərçəkmişlərin xilasetmə avadanlığından istifadə etməklə axtarışı, ilkin yardımın göstərilməsi üzrə praktiki tapşırıqları yerinə yetirirlər.

Təlimdən sonra FHN-in xilasedicilərinə Avstriya Daxili İşlər Nazirliyinin müvafiq sertifikatları təqdim olunacaq.

Qeyd edək ki, dekabrın 11-də start götürmüş bu təlim iki nazirlik arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən sayca beşinci təlimdir.

**Jurnalist araşdırması**

# Şagirdlər narkotik biznesinin ən müdafiəsiz hədəfləridirlər

## Təhsil müəssisələri narkomaniya ilə mübarizədə fəal iştirak etməlidirlər

**Narkotikdən mütəmadi istifadə edənlər başqalarını da bu işə sövq edirlər ki, onların da əksəriyyəti uşaqlar və gənclər olurlar. Bu yaşda olanlar narkotik biznesinin ən həssas və daha müdafiəsiz hədəfləridirlər. Hazırda uşaqların internetə çıxış imkanlarının olduqca yüksək olması, narkotacirlərin sosial şəbəkələrdə çox fəallaşması uşaqların daha erkən vaxtlarda narkotik maddələrin təsiri altına düşməsinə imkan yaradır.**

### Narkotikdən istifadə dərslərin mənimsənilməsinin qarşısını alır

Dünya təcrübəsi göstərir ki, narkomanlığa sövq edilən uşaqlar təxminən 10 yaşında olarkən ilk dəfə bu maddələri sınaqdan keçirirlər. Narkomaniyaya meyilliliyin daha geniş yayıldığı cəmiyyətlərdə isə uşaqlar onu daha erkən yaşlardan istifadə edirlər. Narkomaniyanın ən geniş yayıldığı ölkələrdən olan Braziliyada aparılmış tədqiqat bu bəlaya sürüklənən şagirdlərin təxminən 5 faizinin 10 yaşından da əvvəl narkotiklərdən istifadə etdiyini göstərib. Narkotiklərdən ən çox istifadə edən məktəblilər 13-15 yaş arasında olanlardır. Təcrübə göstərib ki, ömrünün müəyyən dövründə narkotik maddələrdən istifadə etmiş şagirdlər heç bir maddə istifadə etməyənlərlə müqayisədə dərslərini 45 faiz daha gec mənimsəyirlər.

Məktəblilər arasında narkotik maddələrin istifadəsindən danışarkən yalnız bir səbəb üzərində dayanmaq düzgün olmaz. Bu istifadə bir neçə faktorun təsiri altında yaranır ki, onların arasında sinifdə həddindən artıq utancaqlıq və aqressiv davranışlar, məktəbdə müvəffəqiyyətin azalması, sosial bacarıqların zəifliyi, ailə mühitində narkotik maddələrin istifadəsinə şəraitin yaradılması kimi və digər amillər də var. Narkotiklərdən istifadəni qabaqlayan qoruyucu faktorların arasında isə məktəbdə müvəffəqiyyətli olmaq, məşğuliyyət dairəsinin genişliyi, narkomaniya və narkotik maddələr haqqında düzgün maarifləndirmənin aparılması və s. kimi işlər durur.

Narkomaniya ilə mübarizədə ailə mühiti olduqca böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, təhsil müəssisələrində təlim-tərbiyə sisteminin düzgün təşkili də mühüm rol oynayır. Bu baxımdan pedaqoqların üzərinə narkomaniya ilə mübarizədə xüsusi məsuliyyət düşür.

Məktəblərin bu məsələdəki rolunu araşdıran Təhsil İnstitutunun gəldiyi qənaətə görə, öyrənmə prosesinin şagirdlər üçün cəlbedici qurulması onları zidd davranışlardan uzaqlaşdıra bilir. Bu səbəbdən təlimin təşkili məsələləri həmişə diqqət mərkəzində olmalıdır. Şagirdlərə özünüidarə imkanları yaratmaq onların fəal və məsuliyyətli olmasını dəstəkləyir. Məsələn, şagirdlər üçün önəmli olan məsələlərin (şənliklərin, ekskursiyaların, gəzintilərin və idman yarışlarının təşkili, məktəbli forması ilə bağlı məsələlər və s.) nəzarətdə saxlanılmasını şagirdlərin özlərinə həvalə etmək olar. Valideynlər və övladları arasındakı yaxşı münasibətin olması narkotiklərə qarşı mübarizədə böyük rol oynadığından valideynlər üçün mütəmadi maarifləndirici seminarların keçirilməsi tövsiyə edilir. Özünüifadə çətinliyi olan şagirdlər üçün qrup terapiyasının təşkili fayda verə bilər. Musiqi, təsviri incəsənət, texnologiya və fiziki tərbiyə dərslərinin imkanlarından tam istifadə etmək məktəbdə normal öyrənmə mühitinin bərqərar olmasına şərait yaradır və şagirdləri kənar təsirlərdən uzaqlaşdırır. Narkoloji dispanserə ekskursiyanın təşkili, həkimlərin iştirakı ilə "dəyirmi masa"lar kimi tədbirlərin keçirilməsi faydalı ola bilər.

### Şagirdlərə narkomaniyanın fəsadları barədə məlumatların verilməsi vacibdir

Bəzi mütəxəssislər dərsliklərdə narkomaniya haqqında məlumatların daha da dərinləşdirilməsinin və ya onun ayrıca fənn formasında tədrisinin narkomaniya ilə mübarizədə uğurlu olacağına inanırlar. Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu deyib ki, "Həyat bilgisi" dərsliyində narkomaniya ilə mübarizə məsələlərini bir qədər genişləndirməyi düşünürlər. Ancaq narkomaniya ilə mübarizə məqsədilə məktəblərdə ayrıca fənnin tədrisi məqsədəuyğun deyil.

Bakı şəhər 176 saylı tam orta məktəbin psixoloqu Qəmər Bünyatova isə bu fikirdədir ki, dərsliklərdə narkomaniyaya dair informasiyaların daha da dərinləşdirilməsinə, xüsusilə narkotik maddə qəbul edərkən yaranan təsirlər barədə məlumatların verilməsinə ehtiyac yoxdur. O hesab edir ki, profilaktik tədbir olaraq şagirdlərə narkomaniyanın fəsadları barədə məlumatların verilməsi yetərlidir. Çünki yeniyetmələrdə maraq hissi güclü olduğundan onlar həmin vasitələri yoxlamağı bacarırlar. Psixoloq valideynləri xəbərdar edir ki, narkomaniyanın ilk mərhələsi siqaret çəkməkdən başlayır. Siqaret çəkən uşağın gələcəkdə narkotik maddə aludəçisi olmaq ehtimalı daha çoxdur. Buna görə də valideynlər uşaqlarının bu zərərli vərdişə yiyələnməsindən çox narahat olmalıdırlar.

### Narkomaniyaya qarşı görülən tədbirlər

Məktəblərdə narkomaniyaya qarşı görülən tədbirlərin mahiyyətinə gəldikdə, Bakı şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov nəzərə çatdırır ki, hər hansı uşağı xüsusi nəzarətdə saxlamağa ehtiyac yarandığı zaman gördükləri profilaktik tədbirlər səmərəsini verir. Onun sözlərinə görə, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində şagirdləri narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlandırmaq, narkomanlığın cəmiyyətdə yaratdığı sosial bəlalar və insanların sağlamlığına vurduğu ziyanlarla bağlı məktəblilər arasında təbliğat aparmaq, onları belə neqativ əməllərdən çəkindirmək məqsədilə maarifləndirici tədbirlər mütəmadi olaraq keçirilir. Maarifləndirici tədbirlərdə məktəblilərə narkotik vasitələrin ziyanlarından, real örnəklərdən, istənilən tütün məmulatlarının orqanizmdə törətdiyi böyük fəsadlardan bəhs olunur. Onlara zərərli vərdişlərdən uzaq olmaq və sosial bəlalara qarşı mübarizə aparmaq üçün tövsiyələr verilir.

### Məktəblərdəki mövcud yanaşmalar öz effektivliyini itirib

Narkomaniya ilə mübarizədə məktəbin imkanlarının nədən ibarət olduğunu müəyyən etmək üçün beynəlxalq təcrübəyə istinad edilməsini vacib sayan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova düşünür ki, narkomaniyanın qarşısının alınması bu gün yeni taktiki həllər tələb edir. Məktəbdə gənclərə yönəlmiş mövcud yanaşmalar öz effektivliyini itirib. Gənclərin iyerarxik strukturlardan istifadə etməyən daha yaradıcı yanaşmalara ehtiyacları var: "Avropada yeniyetmə və gənclər arasında narkomaniyanın qarşısının alınması üzrə bir çox proqramlar həyat keçirilir. Buna nümunə kimi həyatın inkişafına dair yeni bacarıqların öyrədilməsinə və standart yanlış təsəvvürlərin aradan qaldırılmasına yönələn "Unplugged" proqramını göstərmək olar. Almaniyada hazırlanmış, İngiltərədə sınaqdan keçirilmiş "Rebound" proqramı ("Ricochet") da bu nümunələrdən biridir. Həmin proqramların pozitiv tərəfi onların narkotik və psixoaktiv maddələrin qəbulu ilə bağlı aydın təsəvvür formalaşdırması, öyrənməyi və müdafiə olunmağı təşviq etməsi, qoruyucu və tərbiyəedici təhsil mühiti yaratmasıdır. Onların icrası zamanı sübutlara əsaslanan, insanı zərərli vərdişlərə yönəltməyən üsullardan istifadə olunur".

H.Hüseynova deyir ki, ötən əsrin 80-ci illərində ABŞ-da bütün əvvəlki tədbirlərdən daha yaxşı nəticə verən narkomaniyaya qarşı ümummilli kampaniyanın uğurunun əsas səbəbi onun məqsədinin düzgün müəyyən edilməsi idi. Məqsəd gənclərdə narkotiklərə qarşı laqeyd və ya mənfi münasibətin formalaşdırılması idi ki, buna da məktəblərin köməyi ilə nail olundu. Prosesə müəllimlərlə yanaşı, ölkədə tanınmış və nüfuzlu şəxslər (sənət adamları, idmançılar, siyasətçilər, iş adamları, polislər) cəlb edildi. Həmin proqram hələ də davam etməkdədir.

### Valideynlə yanaşı, müəllim də uşağı bu bəladan qurtarmağa kömək etməlidir

H.Hüseynova hesab edir ki, çox az insanın tam və sağlam həyata dönə bildiyi bu dəhşətli bəladan real xilasedici valideynlə yanaşı, həm də müəllimdir: "Biz hər zaman fikirləşirik ki, uşaqları mümkün şəxsi faciələrdən ən yaxşı şəkildə valideyn qoruya bilər. Ancaq bu zaman bəzi suallar yaranır: Uşağın ata və ananın məsləhətlərinə qulaq asması üçün ailədə kifayət qədər qarşılıqlı anlaşma varmı? Bütün valideynlər uşağı bəlalardan məharətlə və effektiv şəkildə xəbərdar edə bilirlərmi? Təbii ki, ailə bu pisliyə gedən yolu bağlayan əsas qalxandır. Lakin təəssüf ki, ailə həmişə bu problemi uğurla həll edə bilmir. Bunun bir çox səbəbləri var və onlar hamıya məlumdur. Buna görə də valideynlə yanaşı, müəllim də uşağı bu bəladan qurtarmağa kömək edə bilər".

Komitə sədri əlavə edir ki, adətən gənclərlə birbaşa ünsiyyət üçün qısamüddətli imkanlara malik və sayı da çox məhdud olan narkomaniya mütəxəssisindən fərqli olaraq, müəllim öz şagirdlərinə uzun müddət məqsədyönlü şəkildə təsir göstərmək imkanına malikdir. Müəllimlər millətin sağlamlığı, ölkənin gələcəyi naminə bu üstünlüklərindən istifadə etməlidirlər.

### Uşaqların yanaşması qiymətləndirilməlidir

Milli Məclisin komitə sədri H.Hüseynovanın fikrincə, bu gün ölkə məktəblərində narkomaniya ilə mübarizə aparan zaman uşaqların bu məsələyə yanaşması üzrə qiymətləndirmə aparılmalıdır. Bu zaman yeniyetmələrin üzləşdikləri problemlərin və onların həlli istiqamətində hansı çətinliklərin ortaya çıxdığını müəyyən edəcəklər. Əldə olunmuş nəticə maarifləndirmə tədbirlərinin və proqramlarının daha düzgün və effektiv seçilməsinə səbəb olacaq. Diqqət yetirilməli olan digər məsələ isə mütəxəssislərin, nüfuzlu insanların bu zərərli bəlanın insana təsirini izah etmək üçün seçdiyi üsul və metodlardır.

Narkomaniya ilə mübarizə üçün maarifləndirmə tədbirləri daha da gücləndirilməli, ictimai maarifləndirmənin ənənəvi üsulları ilə bərabər, yeni forma və metodları, o cümlədən sosial media menecment (SMM) mexanizmi tətbiq edilməli, narkomaniya ilə bağlı statistika dəqiq aparılmalı, mövcud qanunların icra mexanizmləri yenidən nəzərdən keçirilməli və s. tədbirlər həyata keçirilməlidir, - deyə H.Hüseynova bildirir.

### Vahid pedaqoji yanaşma olmalıdır

Təhsil İnstitutunun Elmi-Pedaqoji Tədqiqatlar Mərkəzinin Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsinin müdiri, pedaqoji elmlər doktoru, professor Piralı Əliyev deyir ki, son illərdə uşaqların və yeniyetmələrin psixodiaqnostikasına həsr olunmuş tədqiqatlar azalıb. Narkomaniya xəstəliyinə düçar olan insanın yaranmasında ailənin rolu, uşaqlar və yeniyetmələrin narkotik əleyhinə tərbiyəsinin təşkilində məktəblərin rolu barədə ümumiləşdirici tədqiqatlar mövcud deyil. Narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə əleyhinə proqramlar həyata keçirilir, lakin asılılığı aradan qaldırmağa xidmət edən vahid pedaqoji yanaşma yoxdur.

Professor deyir ki, uşağa ailədə ünsiyyət və tənqidi düşünmə bacarığı, müstəqillik və məsuliyyəti bölüşmək aşılanmayıbsa, bu boşluğu dərsdə və dərsdən sonra müəllim doldurmağa çalışmalıdır. Mütəxəssislər (psixoloqlar, müəllimlər) yeniyetmələrə daxili aləmlərini öyrənmək, "mən" anlayışını və sosial bacarıqlarını inkişaf etdirmək üçün təlimlər keçirərək bu prosesə kömək edə bilərlər. Bütün bunlar hər bir yeniyetməni narkotikdən uzaqlaşdıra bilər.

P.Əliyevin sözlərinə görə, mütəxəssislər məktəblilərə narkotikin zərəri haqqında xəbərdarlıq edərkən bildirməlidirlər ki, vətənimizi düşmən tapdağından azad etməyin birinci şərti sağlam və ayıq olmaqdan ibarətdir. Bunun üçün narkotik maddələrdən uzaq olmaq, mənəvi sıxıntı və problemləri inamla, iradə ilə əvəz etmək lazımdır. Bununla həm öz səhhətinizi, həm də ölkəmizin gələcəyini müdafiə etmiş olarsınız.

Pedaqoqun təhsil müəssisələrində müəllimlərin şagirdlərdə bəzi dəyişikliyin müşahidə edildiyi zaman diqqətli olmalarını vacib sayır. Məktəbdə hər hansı həb, ampula, müalicə preparatlarının başqa tibbi formaları, inyeksiya üçün hər hansı vasitə, dəri üzərində inyeksiya izləri, venalarda dəyişiklik, şagirdin nəfəsindən, paltarından, saçından, dərisindən və əllərindən spesifik "kimyəvi qoxu"nun gəlməsinə diqqət verilməlidir. Narkotik vasitə və psixotrop maddə qəbul edəndə süstlük, az hərəkətlilik, danışıq kontaktının çətin olması, hərdən səthi yuxululuq, monotonluq, nitqin rabitəsizliyi, ifadələrin anlaşılmazlığı, yerişin bir qədər pozulması, yüksək əhvali-ruhiyyə, səbəbsiz şənlik, hərəkətlərdə qeyri-ardıcıllıq, fikir dağınıqlığı və s. müşahidə olunur. Müəllimlər şagirdlərin narkotik, psixotrop və digər maddələrdən istifadə etmələrindən şübhələnərkən yubanmadan mütəxəssis-psixoloq və narkoloqu həmin şagirdlərlə anonim söhbətə dəvət etməlidirlər. Valideyn və şagird anonim müalicəyə razılıq verdikdə şagird anti-narkotik mərkəzə göndərilməli, müəyyən edilmiş və anonim müalicəyə göndərilmiş narkomanların hər birinə ciddi fərdi yanaşma təmin edilməlidir.

### Düzgün olmayan məlumat məktəblilərdə narkotiklərə maraq oyada bilər

P.Əliyev bildirir ki, narkomanlıq meyillərinin ilkin profilaktik tədbirlərinə anonim sorğu yolu ilə təhsil ocaqlarının ümumi şəbəkəsindən "risk qrupu"nun ayrılması, müayinələrin məqsədyönlü keçirilməsi, anti-narkotik təbliğatın müntəzəm aparılması aid edilməlidir. Narkomanlıq problemi üzrə mühazirə işləri təcrübəli psixiatr-narkoloqlara həvalə edilərsə, daha effektli olar. Anti-narkotik təbliğat zamanı naşıcasına, ehtiyatsız verilən məlumat məktəblilər arasında qeyri-sağlam maraq oyada və narkotiklərin dadına baxmağa səbəb ola bilər. Mühazirələrdə narkotiklərin necə əldə edilməsi və istifadə yolları, onların təsirinin əsas xüsusiyyətləri və istehlakı zamanı yaranan hissiyyat barədə məlumat verilməməlidir. Narkotiklərin insan orqanizminə məhvedici təsirini, narkotiklərdən istifadənin sosial bəlaya çevrilməsi, erkən müalicənin labüdlüyü və mümkünlüyü, həmçinin narkomanlıq probleminin hüquqi aspektləri ilə bağlı məsələləri xüsusi qeyd etmək lazımdır. Məktəblər narkotiklərin qarşısının alınmasını planlaşdırdıqda müxtəlif yanaşmalar seçə bilərlər ki, bunlara anti-narkotik proqramların işlənilməsi, pedaqoji kollektiv üçün narkotiklər haqqında məlumat xarakterli dərslərin keçirilməsi daxil ola bilər. Bundan başqa, hər hansı icmanın anti-narkotik strategiyasına məktəblər mütləq şəkildə daxil edilməlidir.

Narkomaniya probleminin ictimai təhlükəliliyi onun həmişə gizli şəraitdə baş verməsindədir. Çox zaman buna görə valideynlər övladlarının, xüsusilə məktəbyaşlı uşaqlarının narkomaniyaya meyil etməsindən çox gec xəbər tuturlar. Xəbər tutduqları zaman isə övladlarının artıq "həvəskar" narkomandan "peşəkar" narkomana çevrildiyini görürlər.

Məsələyə düzgün prizmadan yanaşan ölkələr həyata keçirdikləri çoxsaylı tədbirlərə məktəbləri də cəlb etməklə bu sosial bəlanın genişlənməsinin qarşısını ala bilirlər. Gənclərin formalaşmasının ən əhəmiyyətli dövründə iştirak edən təhsil müəssisələrinin narkomaniya ilə mübarizəyə aktiv şəkildə qatılması yalnız ailələrin şəxsi problemlərlə üzləşməsinin qarşısını almağa deyil, həm də dövlətin gələcək nəslinin sağlam olmasını təmin etməyə yardım edir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

◆ Dünya gündəmi

# Qlobal istiləşmə həyatımızı necə dəyişir?





**2020-ci ilin yayında Verxoyanskda Arktika üçün ən yüksək temperatur - Selsi üzrə 38 dərəcə isti qeydə alınıb. Bunu dekabrın 14-də Ümumdünya Meteoroloji Təşkilatı təsdiq edib.**

## BMT Arktikada qeydə alınan yeni temperaturu həyəcan siqnalı adlandırır



### 2021-ci ildə Saxada meşə yanğınları güclənib

Qütb dairəsindən 115 kilometr şimalda yerləşən Rusiyanın Verxoyansk şəhərində 2020-ci il iyunun 20-də havanın temperaturu Selsi şkalası ilə +38 dərəcə olub. BMT-nin Ümumdünya Meteoroloji Təşkilatı (ÜMT) xəbər verir ki, bu, Arktika üçün yeni temperatur rekordudur.

Təşkilatın saytında bildirilir ki, cari ilin yayında Sibirin Arktika zonasında orta temperatur normadan 10 dərəcə çox olub. Nəticədə Saxa Respublikasında (Yakutiya) təbii yanğınlar güclənib, dəniz buzu əriməyə başlayıb.

ÜMT-nın baş katibi Petteri Taalas bildirib ki, Arktika üçün yeni olan bu rekord təşkilatın ekstremal meteoroloji və iqlim hadisələri barədə məlumatlar arxivinə daxil edilmiş və iqlim dəyişikliyinin həyəcan siqnalına çevrilmiş müşahidələr seriyasında növbəti göstəricidir.

### Temperatur rekordları

P.Taalasın dediyinə görə, 2020-ci ildə həm də Antarktika qitəsi üçün yeni temperatur rekordu qeydə alınıb - 18,3 dərəcə. İndi ÜMT daha iki temperatur göstəricilərini yoxlayır. Ötən il Kaliforniyadakı "Ölüm vadisi"ndə qeydə alınmış 54,4 və bu yay İtaliyanın Siciliya adasında qeydiyyatdan keçmiş 48,8 dərəcə isti olub. Bu göstəricilər müvafiq olaraq bütün dünya və Avropa üçün rekord kimi tanına bilər.

Bildirilir ki, ÜMT-nin ekstremal meteoroloji və iqlim hadisələri haqqında məlumat arxivi hələ heç vaxt eyni zamanda bu sayda tədqiqatlar aparmayıb.

Sayı daim artan müxtəlif təbii fəlakətlərin fonunda təsəvvür yarana bilər ki, dünya təbii kataklizmlər qarşısında acizdir. Lakin bu, belə deyil. Quraqlıq və daşqınlar göstərir ki, istiləşmə dərəcəsini hətta ondabir hissədə azaltmaq mümkün olarsa, bu, milyonlarla insanı xilas edəcək. Bununla yanaşı, cox böyük sahələr dağılmaqdan, xeyli sayda bitki və heyvan növləri məhv olunmaqdan müdafiə olunacaq.

İqlimin dəyişməsi üzrə hökumətlərarası ekspertlər qrupunun (IPCC) son hesabatına əsasən, sənaye inqilabından bəri Yer kürəsində orta temperatur 1,07 faiz artıb. Bunun fəsadları artıq indidən hiss olunur.

### Okean səviyyəsinin 10 sm qalxması milyonlarla insan həyatını təhlükəyə atacaq

İqlimin dəyişməsi üzrə hökumətlərarası ekspertlər qrupunun məlumatına görə, dünya okeanının səviyyəsi 20 santimetr qalxıb. İlk baxışdan burada elə bir təhlükə yoxdur. Ancaq bunun fəsadları bütün dünyada insanları evlərini tərk etməyə məcbur edir. Məsələn, Banqladeşdə yüz minlərlə insan daşqın səbəbindən evlərindən məhrum olmuş və ölkənin digər yerlərinə köçmək məcburiyyətində qalmışdır.

Digər bir kədərli hadisə Almaniyanın qərbindəki Ar vadisində baş vermişdi. Orada daşqın nəticəsində yüzdən artıq insan həlak olmuş, onlarca yaşayış məntəqəsi və infrastruktur obyektləri dağılmışdı.

İqlim dəyişikliyinə dair məlumatları təhlil edən Britaniyanın "Carbon Brief" saytı xəbər verir ki, hətta Yer kürəsində temperatur cəmi 1,5 dərəcə qalxsa belə bu, dünya okeanının səviyyəsinin 48 santimetr, 2 dərəcədə isə 56 santimetr qalxmasına səbəb olacaq. Dünya okeanının səviyyəsinin yüksəlməsi ilə bağlı məlumatları toplamaq üçün "Carbon Brief" 70 elmi araşdırmanın nəticələrini təhlil edərək qiymətləndirib. Onların hamısı dərc olunana qədər müstəqil ekspertlər tərəfindən yoxlanılıb.

Məlum olub ki, hətta dünya okeanının səviyyəsinin 8 santimetrlik qalxması belə milyonlarla insanın doğma yerlərini tərk etməsi ilə nəticələnəcək. IPCC-nin hesablamalarına görə, əgər bu göstərici 10 santimetr təşkil edərsə, nəticələr bütün dünyada təxminən 10 milyon insana təsir edəcək.

### Temperaturun yüksəlməsi yağıntıların miqdarının artmasına səbəb olacaq

Bəşəriyyət sənaye inqilabına qədər 10 ildə bir dəfə ekstremal yağıntılarla üzləşib. IPCC-nin hesabatına görə, indi leysan yağışları 30 faiz olur və tez-tez müşahidə edilir. Planetdə temperaturun 1,5 dərəcə yüksəlməsi ilə artım 50 faiz təşkil edəcək ki, bu da havanın rütubətliyinin 10,5 faiz çoxalmasına səbəb olacaq. Əgər temperatur 2 dərəcə qalxsa, ekstremal hava şəraiti sənaye inqilabından əvvəl olduğundan 70 faiz tez-tez müşahidə olunacaq. Havanın rütubəti isə 14 faiz artacaq.

Bundan əlavə, Yerdəki temperaturun 1,5 dərəcə artması ilə daşqınların və sunamilərin vura biləcəyi iqtisadi zərər indi olduğundan 3,5 dəfə, 2 dərəcədə isə 5 dəfə yüksək olacaq.

BMT-nin məlumatına görə, yaxın illərdə bütün ölkələrdə təcili tədbirlər həyata keçirilməsə, yüzilliyin sonuna qədər planetimizdə orta temperatur 2,7 dərəcə yüksələcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "Azercell" Azərbaycan bazarında fəaliyyətinin 25 illiyini qeyd edir

**5 milyondan çox abunəçinin seçimi olan "Azercell Telekom" MMC fəaliyyətinin 25 illiyini qeyd edir. "Azercell"in yaradılması müstəqilliyini yenicə qazanmış Azərbaycanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı və səmərəli islahatların tərkib hissəsi idi.**




Ölkədə telekommunikasiya sənayesinin inkişafına dəstək vermiş Ümummilli Lider Heydər Əliyev "Azercell"in açılış mərasimində iştirak edib. Qürurvericidir ki, GSM texnologiyasını sınaqdan keçirən və "Azercell" vasitəsilə edilmiş ilk zəngə cavab verən şəxs Ulu Öndər olub.

25 illik fəaliyyəti ərzində şirkət Azərbaycanın mobil rabitə bazarında lider mövqeyini möhkəmləndirib və abunəçilərinə daima qabaqcıl həllər təqdim edərək keyfiyyətli, innovativ və əlçatan rabitə xidmətləri göstərib. "Azercell" Azərbaycanda GSM texnologiyası, 24/7 rejimdə çalışan Çağrı Mərkəzi, SimSim (fakturasız) xətt sistemi, M2M xidmətləri, 4G texnologiyası, Azercell Ekspres xidmət mərkəzləri, mobil və onlayn müştəri xidmətlərini təqdim edən, 5G texnologiyasının pilot şəbəkəsini test edən ilk şirkət olub.

"Azercell" Azərbaycanın qeyri-neft sektorunun ən iri vergi ödəyicisidir. Son 25 il ərzində mobil operator dövlət büdcəsinə 2 milyard manatdan çox vəsait köçürüb, ölkədə telekommunikasiyanın inkişafına 1.7 milyard ABŞ dollarından çox investisiya yatırıb, sosialyönümlü layihələrə isə 22 milyon ABŞ dollarından artıq vəsait xərcləyib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamına əsasən müəyyən edilən 5 Milli Prioritetdən biri rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanıdır. "Azercell" də bu gün öz şəbəkəsini bütün ölkə ərazisində genişləndirərək yeni rəqəmsal eraya qədəm qoyur. Şirkət müasir rəqəmsal və kiber xidmətlər üzərində çalışır, həmçinin qabaqcıl kommunikasiya həlləri yaradır. Bu yanaşma şirkətin yenilənmiş korporativ strategiyasında da əks olunur. Yeni strategiyaya görə "Azercell"in əsas məqsədi həm fərdi, həm də bütün növ iri və kiçik biznes müştərilərinin istək və gözləntilərini qabaqcadan müəyyən edərək onlara cavab verməkdir.

"Hazırda biz çağırışlarla zəngin dövrdə yaşayırıq. Texnologiya durmadan sürətlənir, müştərilərimiz öz növbələrində texnoloji yeniliklərə daha açıqdırlar. Bizim yeni məqsədimiz: "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" Müştərilərimizin artan dinamika ilə inkişaf edən istəklərini qarşılamaq və bir addım öndə olaraq onları öncədən müəyyən etmək üçün biz daima öyrənməli, inkişaf etməli və qarşımıza yeni hədəflər qoymalıyıq. Fəaliyyətimizlə cəmiyyətə verə biləcəyimiz faydanı rəhbər tutaraq abunəçilərimizin həyatına daha intensiv şəkildə inteqrasiya olmalıyıq. Hazırkı bazar şərtləri və inkişaf dövründə yalnız bu yolla uğur qazanmaq mümkündür!", - "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalova şirkətin yeni məqsədini açıqlayaraq qeyd etdi.

25 il əlamətdar tarixdir. Bu önəmli gün "Azercell"i gələcək fəaliyyətini yenidən düşünməyə, yüksək texnologiyalar dövrünün tələblərini qarşılamaq və proqnozlaşdırmaq məqsədi daşıyan yeni brend platformasını təqdim etməyə sövq edir. Şirkət brendinin yeni şüarını açıqlayır - "Sənə yaxın gələcək". Yeni kommunikasiya konsepsiyası bir azərbaycanlı ailənin gündəlik həyat hekayələri əsasında hazırlanaraq müasir rəqəmsal və kommunikasiya həllərinin müştərilərə daha əlçatan və daha yaxın olduğunu göstərir. Məhz innovativ rəqəmsal həllər insanların həyat keyfiyyətini yaxşılaşdırmağa, təhlükəsizliyi artırmağa daha da böyük töhfə verəcək.

25 illik yubileyini və brendin yenilənməsini qeyd edən "Azercell" bütün bu illər ərzində onu seçən və ona güvənən bütün abunəçilərinə təşəkkür edir! Yubiley ayı ərzində bütün şirkət abunəçiləri xüsusi bonuslardan yararlana biləcəklər. Ətraflı məlumat abunəçilərə dekabrın 15-dən yanvarın 15-dək SMS vasitəsilə göndəriləcək. Bonus olaraq abunəçilər öz seçimlərinə görə pulsuz internet və yaxud danışıq paketləri alacaqlar. Bundan əlavə, dekabrın 25-dən yanvarın 25-dək "Azercell" abunəçiləri ivi, BluTV, NNTV, SberZvuk, Bookmate və Busuu multimedia xidmətlərindən ödənişsiz istifadə etmək imkanı əldə edəcəklər. Bu tətbiqlər vasitəsilə istifadəçilər öz smartfonlarında sevdikləri filmlərə, TV proqramlara baxa, musiqi dinləyə, kitab oxuya və xarici dil bacarıqlarını inkişaf etdirə bilərlər. Həmçinin yubiley ayı sosial şəbəkələrdə də istifadəçiləri əylənməyə və qiymətli hədiyyələr əldə etmək şansı qazanmağa dəvət edən müsabiqələrlə zəngin olacaq.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti cəmiyyətin balansında olan gəmilər üçün Kəpənək (Butterfly) tipli klapanların və klapanların ehtiyat hissələrinin satın alınması *məqsədi ilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 22 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 05.11.2021-ci il və 23.11.2021-ci il tarixli nömrələrində Azərbaycan Respublikası Mərkəzi Bankının balansında olan Əsas vəsaitlərin və nağd pulun sığortalanması üzrə dərc edilmiş açıq tender Tender komissiyasının 14 dekabr 2021-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

# Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı gözlənilir

Azərbaycanda dekabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər və axşam bəzi yerlərdə duman. Mülayim cənub-qərb küləyi gündüz şimal küləyi ilə əvəz olunacaq. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-8°, gündüz 9-12° isti, Bakıda gecə 6-8°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-90 faiz, gündüz 65-75 faiz olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 16-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi qərb rayonlarında az yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 9-14° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 0-5° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 6-11° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 0-5° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 1-5° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 6-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 1-6° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 9-14° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 9-12° isti, dağlarda gecə 1-3°, gündüz 4-8° isti olacağı gözlənilir.







"BM CORPORATİON" MMC köhnə adı ilə BM - Nəqliyyat MMC (VÖEN - 2001411011) məxsus FHN/54-01734 qeydiyyat nömrəli lisenziyanın (lisenziya nömrə - 074271) əlavə sənədi itdiyi üçün lisenziya etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin kollektivi Bakı şəhəri, Qaraçuxur qəsəbə məscidinin imamı Qurban Əliyevə anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin kollektivi müəssisənin əməkdaşı Nərgiz İsgəndərzadəyə anası

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5586
Sifariş 2623
Qiyməti 40 qəpik